QARABAĞ AZƏRBAYCANDIR!

## "Qardaş yumruğu" dünya mediasında!



7

Səs

№ 226 (6667) 9 dekabr 2022-ci il. Qiyməti 60 qəpik

## Azərbaycan - Albaniya münasibətlərində qarşılıqlı etimad



2

İlham Əliyev: "Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır"

# Qardaş birliyindən İRANA CAVAB!



9

### Müstəqil Azərbaycan Heydər Əliyevin əbədiyaşar ideyaları və zəngin siyasi irsi əsasında tarixi nailiyyətlərə imza atır



4

### ABŞ Konqresində erməni-yunan fiaskosu



13

### Bu yol Heydər yoludur, Ulu Öndər yoludur - (Poema)



10

### Bakının mərkəzində "Qış Nağılı"



12

### Yolda piyada vurma hadisələrinin əsas səbəbi NƏDİR?



10

# Azərbaycan - Albaniya münasibətlərində qarşılıqlı etimad

*İlham Əliyev: "Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır"*

Dünən Azərbaycan Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub. Qonağı salamlayan Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır:

- Xoş gəlmisiniz. Sizi bir daha görməyimə çox şadam. Əvvəla, Albaniyaya səfərim zamanı mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Razılığa gəldiyimiz kimi, biz fəal dialoqu davam etdirəcəyik. Sizin səfəriniz artıq razılaşdırılmış məsələlərin gedişatını izləmək xarakteri daşıyır. Hər iki tərəfdən bütün tapşırıqlar verilib. Heyətlərimiz fəal şəkildə işləyirlər. Mənim rəsmi səfərimin nəticələri olduqca müsbətdir. Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır. Sizə məlumat verdiyim kimi, biz Tiranada səfirlik açırıq və bu da əməkdaşlığımızın vacib bir əlamətidir. Praktiki nöqteyi-nəzərdən bu, bizə ölkənizdə gedən proseslərlə daha yaxından tanış olmaq imkanı verəcək. Eyni zamanda, bu, bizə ikitərəfli gündəliyimizdə daha da səmərəli olmağa imkan yaradacaq. Bir daha xoş gəlmisiniz.

**Albaniyanın Baş naziri Edi Rama:**

-Təşəkkür edirəm cənab Prezident. Bu, mənim üçün şərəfdir. Mən də təşəkkürümü ifadə etmək istəyirəm. İcazə verin deyim ki, məsələlərin gedişatı ilə bağlı təəssüratım heyrətamizdir. İndi ölkəmizdə Azərbaycan səfirliyinin açılması çox vacib bir məsələdir. Qalan digər məsələlərə gəldikdə isə Siz dediyiniz kimi, biz işi davam etdirməliyik. Təşəkkür edirəm.









Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə işçi səhər yeməyi əsnasında geniş tərkibdə görüşü olub. Daha sonra dövlətimizin başçısı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çəkdiyi rəsm əsərini və Leyla Əliyevanın əsərlərinin kataloqunu qonağa hədiyyə edib.

İndi də gəlin Azərbaycan-Albaniya münasibətlərinin ən yeni tarixinə nəzər salaq. Məlumdur ki, dünya dövlətləri ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Müxtəlif sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Son 19 ildə Cənab İlham Əliyevin apardığı məqsədyönlü müdrik xarici siyasət nəticəsində dünyada Azərbaycanla dostluq, müttəfiqlik münasibətləri quran dövlətlərin sayı artıb. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək bir mərhələdədir. Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Albaniya ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin məntiqi nəticəsidir. Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlər iqtisadi, ticari, enerji, turizm və digər sahələri əhatə edir. Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə görüşü və burada səslənən fikirlər dövlətlərarası münasibətlərin qarşılıqlı inam və etimad əsasında qurulduğunu bir daha göstərir. "Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır", - deyən Cənab Prezident bildirib ki, Tiranada Azərbaycanın səfirlik açırıq və bu da əməkdaşlığımızın vacib bir əlamətidir: "Praktiki nöqteyi-nəzərdən bu, bizə ölkənizdə gedən proseslərlə daha yaxından tanış olmaq imkanı verəcək. Eyni zamanda, bu, bizə ikitərəfli gündəliyimizdə daha da səmərəli olmağa imkan yaradacaq".

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin noyabr ayının 15-də Albaniya Respublikasına səfər etmişdir. Bu səfər Prezident İlham Əliyevin Albaniyaya ilk səfəri idi. Xatırladaq ki, Azərbaycan ilə Albaniya arasında diplomatik münasibətlər 1993-cü ilin sentyabrın 23-də qurulub. Bu münasibətlərin 30-cu ildönümü ilə əlaqədar gələn il Albaniyada "Azərbaycan Həftə"sinin təşkil olunması planlaşdırılır. Bu zaman çərçivəsində Albaniya prezidentləri ölkəmizə 5 işgüzar səfər ediblər. 2022-ci il aprelin 14-də Azərbaycana rəsmi səfər edən Albaniyanın Baş naziri Edi Rama Bakıda olarkən "Albaniya ATƏT-in sədri və hazırda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi hər zaman Azərbaycanı, həqiqəti və ölkənizin tarixi hüquqlarını dəstəkləyir və bunu etməyə davam edəcək" - deyə bildirmişdir.

## ALBANİYA AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİB

Prezident İlham Əliyevin Albaniyada rəsmi səfəri zamanı mətbuata bəyanatla çıxışı zamanı "Beynəlxalq təşkilatlardakı uğurlu əməkdaşlığımız da bizim əlaqələrimizi gücləndirir" - deyərək, Albaniyanın həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və bu dəstəyin həmişə qarşılıqlı olduğunu bildirib: "Biz İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq öz əzəli torpaqlarımızı işğalçılardan azad etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik". Cənab Prezident çıxışında BMT Təhlükəsizlik Şurasının qətnamələrinə nəzər salaraq bu qətnamələrin 1993-cü ildə qəbul olunduğunu diqqətə çatdırmışdır. Təəssüf ki, bu qətnamələr 27 il ərzində icra edilmədi və beynəlxalq birlik isə buna göz yummaqda davam edirdi: "Ermənistana hər hansı bir sanksiya tətbiq edilməmişdir. Baxmayaraq ki, dəfələrlə Azərbaycan məsələ qaldırmışdır ki, Ermənistana qarşı sanksiyalar tətbiq edilsin, Ermənistan cəzalandırılsın. Çünki Azərbaycan ərazisinin 20 faizini işğal etmək böyük cinayətdir və işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparmaq hərbi cinayətdir. Orada törədilmiş dağıntılar faktiki olaraq o torpaqları tamamilə cansız edib", - deyə Prezident bildirib.

## "AZƏRBAYCAN QAZI AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ DƏ ÖZ TÖHFƏSİNİ VERİR"

Ölkə başçısı çıxışında ölkələr arasında bir çox məsələlərlə bağlı əməkdaşlığa toxunaraq, iqtisadiyyat və sənaye üzrə yaradılmış müştərək işçi qrupunun tezliklə birinci iclasının keçirməli olduğunu, eyni zamanda Albaniya və Azərbaycan şirkətlərinin birgə fəaliyyəti, birgə müəssisələrin yaradılması, turizm, kənd təsərrüfatı, müasir texnologiyalar sahələrinin də ölkələr üçün prioritet təşkil etdiyini bildirib. İqtisadi sahədə Azərbaycan və Albaniya arasında 2016-2017-ci illərdə ticarət əlaqələrində canlanma müşahidə edilib. İki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin geniş potensiala malik olması baxımından tərəflər bu sahədə əməkdaşlığın inkişafı məqsədilə birgə səyləri artırmağı məqsədəuyğun hesab edirlər. Enerji sahəsində əməkdaşlıq isə iqtisadi əlaqələrimizin əsas istiqamətidir. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) layihəsinin həyata keçirilməsi strateji əhəmiyyət daşıyır və hər iki ölkə bu istiqamətdə uğurla əməkdaşlıq edib. Bütün bunlarla yanaşı, Albaniya Azərbaycan tərəfinin ölkənin enerji infrastrukturunda aktiv iştirakında maraqlıdır. Göründüyü kimi, qarşılıqlı səfərlər dövlətlərarası əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcək, dövrün çağırışlarına cavab olaraq müsbət təsirini göstərəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# HEYDƏR ƏLİYEV

## - Əbədi müstəqilliyə imza atan Dahi Şəxsiyyət

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 19 il ötür. Hər il ulu öndərin anım günü ölkəmizdə geniş qeyd olunur, dahi şəxsiyyətin xalqımız qarşısındakı əvəzsiz xidmətləri bir daha xatırlanır. Tarixdə elə şəxsiyyətlər var ki, adı və əməlləri dünya durduqca yaşayacaq, gələcək nəsillərə örnək olmaqla, onların yolunda əbədi məşələ çevriləcəkdir. Adı müasir bəşər tarixinə qızıl hərflərlə həkk olunmuş xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Misilsiz xidmətləri ilə xalqın liderinə çevrilən Heydər Əliyev həyatını risklərə ataraq bütün fəaliyyətini Azərbaycanın çiçəklənməsi, inkişafına həsr edib. Milli ideallar uğrunda mübarizədə yüksək qətiyyət göstərməsi onun əsas xarakterik xüsusiyyətləri sırasında idi. Məhz bunun sayəsində Ulu Öndər harada olursa-olsun, hadisələrin fövqünə qalxmış, idarəçilik qabiliyyətini reallaşdırmış, fenomen lider imicini qorumuşdur. Çünki qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş, canlı əfsanəyə çevrilmiş ən böyük azərbaycanlıdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dönə-dönə vurğulayıb ki, xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır: "Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

### MÜSTƏQİL AZƏRBAYCANIN MEMARI

Bəli, tarix dəfələrlə sübut edib ki, bir xalqın mövcudiyyəti onun həmrəyliyindən və bu həmrəyliyi təmin edən liderlərin dövrün məsuliyyətini öz üzərlərinə götürərək tarixi yenidən yazmaq bacarığından irəli gəlir. Bu mənada, Azərbaycan xalqı xoşbəxt xalqlardandır ki, Heydər Əliyev kimi dahi şəxsiyyət Azərbaycanı tarixin ən çətin sınaqlarından çıxarmaqla onun mövcudluğunu əbədi etmişdir. Təsadüfi deyil ki, fərqli ictimai-siyasi dövrlərdə belə, mənsub olduğu xalqın xoşbəxtliyi üçün yorulmadan çalışan ulu öndər Heydər Əliyevin adı dünyanın axarını dəyişən böyük tarixi şəxsiyyətlərlə bir sırada çəkilir. Onun qeyri-adi siyasi bacarığı və böyüklüyü hər kəs tərəfindən etiraf olunur. Bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimizin müəllifi olduğu inkişaf strategiyası dayanır. Bu strategiyanın tarixi ulu öndərimizin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən başlayır. Bu dövrədək zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, ölkəmiz ittifaq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerləri tuturdu. Görkəmli dövlət xadiminin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açmış və ölkəmiz qısa zamanda ittifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi. O dövrdə dahi rəhbər sənaye və kənd təsərrüfatının inkişafına yönəlmiş çox mühüm qərarlar qəbul etmiş, 14 il ərzində 1048 sənaye obyekti tikilmişdir. Bu dövrdə təkcə iqtisadi sahədə deyil, elm, təhsil, səhiyyə və mədəniyyət sahələrinə də böyük qayğı göstərilmişdir. Xüsusilə gələcək müstəqil Azərbaycanın əsas dayağına və qarantına çevriləcək milli ordu quruculuğu siyasəti ön planda olmuşdur. Təsadüfi deyil ki, Azərbaycanda siyasi rəhbərliyə gəlişindən çox qısa bir dövr keçməsinə baxmayaraq ulu öndərin böyük siyasi iradəsi hesabına respublikamızda ilk hərbi təmayüllü məktəb-C.Naxçıvanski adına hərbi lisey yaradılmışdır. Həmin hərbi məktəbin yaradılması ilə milli hərbi kadrların formalaşdırılması yeni mərhələyə qədəm qoymuşdur. Bu gün ölkəmizdə hərbi uğurların təməli də məhz 51 il əvvəl atılmış bu cəsarətli addıma əsaslanır.



İLHAM ƏLİYEV: "Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq"

### ÖMRÜNÜ VƏTƏNİNƏ, XALQINA HƏSR EDƏN ƏBƏDİYAŞAR LİDER

Bəli, XX əsrdə ikinci dəfə müstəqillik əldə edən Azərbaycan ümummilli lideri Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi sayəsində xaos və tənəzzüldən xilas olaraq tərəqqi yoluna qədəm qoyub. Ulu öndərin mənalı və şərəfli ömür yolunun hər bir parlaq səhifəsi xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir. Çünki Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli ideallara bağlı olmuşdur. Ümummilli liderimiz Heydər Əliyev bütün zəngin və mənalı həyatı boyu daim xalqını, Vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir.Hər bir ölkənin tarixində onun gələcək taleyinə bilavasitə təsir göstərən əhəmiyyətli dönüş nöqtələri olur. Azərbaycan xalqının müasir tarixində -15 iyun Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı oldu. Ulu öndər Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının əsas istiqamətləri kimi müəyyənləşdirdi. 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, de-fakto bu istəyini reallaşdıra bilməmiş, hakimiyyətdə olan naşı və səriştəsiz qüvvələr ictimai-iqtisadi formasiya dəyişkənliyinin doğurduğu ağır problemlərin öhdəsindən gələ bilməmişlər. Nəticədə, ölkədə iqtisadi tənəzzül prosesi dərinləşmiş, xalqın yaşayış səviyyəsi pisləşmiş, qanunçuluğun, hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdır. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. Xüsusən də 1992-ci ilin may ayında silahlı yolla hakimiyyətə gələn AXC-Müsavat iqtidarının siyasi səriştəsizliyi, qətiyyətsizliyi Azərbaycan dövlətçiliyinə ciddi təhlükəyə çevrilən neqativ meyillərin baş qaldırmasına - siyasi mübarizədə qanunsuz silahlı birləşmələrdən istifadəyə, etnik separatizmə, vətəndaş itaətsizliyinə gətirib çıxarmışdı. Ölkədə ictimai-siyasi gərginliyin, özbaşınalığın, xaos və anarxiyanın hökm sürməsi, torpaqlarımızın bir-birinin ardınca işğalı xalqda sabaha ümidsizlik yaratmışdı. Belə çətin məqamda dahi şəxsiyyət Heydər Əliyevin xalqın çağırışına səs verməsi, birlik, həmrəylik nümayiş etdirməsi bu ümidsizliyi aradan qaldırdı. Bu elə bir dövr idi ki, ermənilərin "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. 1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsi yerli qurumlarına məxsus dəstələr Daxili İşlər Nazirliyi binasını, televiziya studiyasını ələ keçirdi. Qiyamçılar xalqa televiziya ilə müraciət edib mövcud hakimiyyət əleyhinə bəyanatlar verirdilər. Gəncədə 1993-cü il iyun qiyamı vəziyyəti daha da ağırlaşdırdı. Ölkənin müstəqilliyinin itirilməsi ilə üzləşdiyi bir şəraitdə AXC hakimiyyəti xalqın israrlı tələbləri ilə, çıxış yolunu yeganə xilaskar kimi Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etməkdə gördü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi. Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

### TARİXİN YADDAŞINDA ƏBƏDİ İZ QOYAN LİDER

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya ölkələri sırasında layiqli yerə çıxarıb.Bəli, tarixi şəxsiyyət o zaman dahi öndər, lider olur ki, o, özünün atdığı imza ilə xalqının adından imza atmış olsun. Bu yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları hörülüb, iqtisadi, sosial və mədəni potensialı formalaşıb. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, əsaslı dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir.

Sevindiricidir ki, Ümummilli Liderin ən ümdə arzusunun həyata keçməsi Qələbəmizin ikinci ilində keçirilir. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən dahi Heydər Əliyevin bu arzusunu bu gün onun siyasətinin layiqli davamçısı, Azərbaycan xalqının mərd oğlu, Qalib Lider, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə güclü ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə "Şuşasız işimiz yarımçıq qalar" deyərək yerinə yetirdi. Prezident İlham Əliyev "Qarabağ Azərbaycandır!" deyərək bu məsələnin nidasını qoydu və Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Beləliklə də, Prezident İlham Əliyev "ata vəsiyyətini" yerinə yetirərək bütün Azərbaycan xalqını xoşbəxt etdi. Bəli, bu gün dahi şəxsiyyətin müəyyənləşdirdiyi müdrik siyasi kurs bu gün də, gələcəkdə də dəyişməz olaraq qalacaqdır. Çünki bu siyasət Azərbaycana daim uğur, xoşbəxtlik gətirir. Ulu Öndərimizin siyasəti yaşayır, möhkəmlənir və zənginləşir.

Və xalqımız xoşbəxtdir ki, Ümummilli Liderimizin siyasi kursu bu gün Onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İndi Azərbaycan iqtisadi inkişaf tempinə görə öndədir. Dünyada əhəmiyyətli regional layihələrin təşəbbüskarı və iştirakçısıdır. Əminik ki, Ulu Öndərimizin bütün arzuları çin olacaq və Azərbaycan dünyanın ən qüdrətli dövlətləri arasında özünə layiq yüksəkliyə ucalacaqdır! Dövlət başçımız cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

***RƏFİQƏ KAMALQIZI***

# Müstəqil Azərbaycan Heydər Əliyevin əbədiyaşar ideyaları və zəngin siyasi irsi əsasında tarixi nailiyyətlərə imza atır

## SİA Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun "Azərbaycan" qəzetinə müsahibəsini təqdim edir:

***- Tahir müəllim, 12 dekabr ümummilli lider Heydər Əliyevin anım günüdür. Azərbaycan xalqı Ulu Öndərin əziz xatirəsini ehtiramla yad edir, onun misilsiz xidmətlərini daim yüksək qiymətləndirir. Müdrik dövlət xadiminin ölkəmizə rəhbərlik etdiyi müxtəlif dövrlərdə Azərbaycan naminə gördüyü işləri necə xarakterizə edərdiniz?***

- Müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin əbədiyyətə qovuşmasından 19 il ötsə də, çoxəsrlik tarixinin ən parlaq dövrünü yaşayan qədirbilən Azərbaycan xalqı onun misilsiz xidmətlərini hər an yüksək qiymətləndirir, Ulu Öndərin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir. Çünki bu gün qüdrətli və qalib Azərbaycan Heydər Əliyevin əbədiyaşar ideyaları, zəngin siyasi irsi əsasında tərəqqi və Zəfər yolunda əmin addımlarla irəliləyir, tarixi nailiyyətlərə imza atır.

Heydər Əliyev istər SSRİ dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi zamanı Azərbaycanın milli maraqlarını daim uca tutub, Vətən naminə fədakarcasına, əzmlə və qətiyyətlə çalışıb.

1969-cu ilin 14 iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev Moskvanın yaratdığı mənеə və məhdudiyyətlərə baxmayaraq, respublikamızın perspektiv inkişafı üçün möhkəm təməllərin yaradılmasına müvəffəq olub, uzaqgörən siyasəti ilə Azərbaycanın gələcək müstəqilliyinin bünövrəsini inşa edib. Məlumdur ki, 1982-ci ilin dekabrında SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi də Azərbaycanın mənafeələrini qətiyyətlə qoruyub, xalqımızın rifahı və firavanlığı, respublikamızın inkişafı üçün əhəmiyyətli addımlar atıb, tarixi xidmətlər göstərib.

Müdrik dövlət xadiminin fəaliyyətinin Naxçıvan dövrü də müasir dövlətçilik tariximizin ən mühüm səhifələrindən biri kimi əlamətdar hadisələrlə zəngindir. Heydər Əliyevin muxtar respublikanın Ali Sovetinin sədri olduğu zaman atdığı addımlar müstəqillik ideyasının mənimsənilməsində, milli həmrəyliyin təmin edilməsində, milli-mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin qorunmasında müstəsna rol oynayıb. Xatırlatmaq yerinə düşər ki, Ulu Öndərin təşəbbüsü ilə ilk dəfə olaraq Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımız qaldırılıb, Naxçıvan MSSR adından "Sovet Sosialist" ifadəsi çıxarılıb, 20 Yanvar faciəsinə siyasi qiymət verilib, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılmasına dair keçirilən referendumda iştirak etməməsi, 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə tarixi qərarlar qəbul olunub, "Ümid" körpüsü vasitəsilə



Türkiyə ilə münasibətlərin yeni dönəminin əsası qoyulub. Bütün bu milli məzmunlu, müstəsna ictimai-siyasi, ideoloji və tarixi əhəmiyyətə malik addımlar keçmişə hörmət və ehtiram, gələcəyə aydın baxış və milli hədəflərə yönəlik sistemli fəaliyyət nümunəsi kimi böyük önəm daşıyıb.

Həmin dövrdə, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması isə nəinki müstəqillik, hətta müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu. İnkaredilməz həqiqətdir ki, ölkəmizin böhran və tənəzzüldən xilas olaraq sabitlik və inkişaf yoluna qədəm qoyması güclü lider və dahi şəxsiyyət Heydər Əliyevin ətrafında cəmiyyətimizin ən öncül zümrəsinin birləşməsi ilə başladı. Xalqın dəstəyi, Heydər Əliyevin qətiyyətli mövqeyi, siyasi iradəsi və uğurlu fəaliyyəti nəticəsində Yeni Azərbaycan Partiyası qısa müddət ərzində ümumxalq partiyasına və dövlətin siyasi sütununa çevrildi. Yarandığı gündən bir neçə ay sonra Yeni Azərbaycan Partiyasının xalqın etimadı ilə hakimiyyətə gəlməsi dünya siyasi tarixində nadir hadisələrdən biri, Heydər Əliyev şəxsiyyətinə ümumxalq inamının bariz təzahürü idi.

Bununla da siyasi tariximizin çətin, mürəkkəb, keşməkeşli və qeyri-müəyyən dövründə - ölkədə vəziyyətin durmadan ağırlaşdığı və kəskinləşdiyi, inamın azaldığı, ümidlərin tükəndiyi bir vaxtda Ümummilli Lider xalqımız qarşısında ən böyük xidmətlərindən birini - xilaskarlıq missiyasını yerinə yetirdi, Heydər Əliyevin Qayıdışı Azərbaycanın Qurtuluşunu təmin etdi. Ümummilli Liderin zəngin dövlətçilik təcrübəsi və məqsədyönlü siyasəti sayəsində xaosun, vətəndaş qarşıdurmasının qarşısı alındı və sabitlik təmin edildi. Həmin il oktyabr ayının 3-də keçirilən prezident seçkilərində xalqımızın iradəsi əsasında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin milli maraqlara, dövrün tələblərinə və ictimai-siyasi reallıqlara uyğun qətiyyətli siyasəti ölkəmizin inkişaf yoluna qədəm qoymasını təmin etdi. Vətəndaş həmrəyliyinin, milli birliyin təmin edilməsi, siyasi-hüquqi islahatlar, o cümlədən müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi, müstəqillik dönəminin ilk Konstitusiyasının hazırlanması və ümumxalq səsverməsi - referendum əsasında qəbul edilməsi, kütləvi informasiya vasitələri üzərində senzuranın aradan qaldırılması, ordu quruculuğu, milli maraqlara əsaslanan xarici siyasət nəticəsində ölkəmizin dostlarının və müttəfiqlərinin sayının artması, Azərbaycan həqiqətlərinin, o cümlədən Qarabağ məsələsində ölkəmizin haqlı mövqeyinin dünya birliyinə çatdırılması Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsinə və mütərəqqi, sivil dəyərlər əsasında dünya birliyinə inteqrasiyasına mühüm töhfə oldu. Beynəlxalq ictimai rəydə Azərbaycanın müstəqil və milli maraqlara əsaslanan siyasət həyata keçirən, güclü və xarizmatik lideri olan, ümummilli məsələlərdə prinsipial mövqedən çıxış edən qüdrətli dövlət imici formalaşdı.

Bütövlükdə, həm sovetlər birliyi dönəmində, həm də müstəqilliyin bərpasından sonra Ulu Öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini təmin etmişdir. Ona görə də əminliklə söyləyirik ki, Azərbaycanın müstəqil dövlət kimi inkişafı, tarixi uğurlar qazanması Ümummilli Liderin adı, siyasəti və ideyaları ilə bağlıdır. Heydər Əliyev yolu çoxəsrlik tarixə əsaslanan milli dövlətçiliyimizin və dövlət müstəqilliyimizin inkişaf salnaməsidir.

***- Siyasi analitiklər, tədqiqatçılar vurğulayırlar ki, Heydər Əliyevin xalqımız qarşısında və müasir dövlətçilik tariximizdə misilsiz xidmətlərindən biri siyasi varisliyi təmin etməsidir. Bu barədə nə deyə bilərsiniz?***

- Ulu Öndər fəaliyyəti boyunca tarixi və siyasi ənənələrə, milli-mənəvi dəyərlərə xüsusi diqqət yetirməklə yanaşı, yenilikçi, mütərəqqi baxışlara əsaslanan və xalqın xoşbəxt gələcəyinə hesablanmış çox mühüm təşəbbüslər irəli sürüb, vacib addımlar atıb. Siyasi varisliyin təmin olunması isə Azərbaycanın müasir dövlətçilik tarixində müstəsna yerə və rola malik taleyüklü hadisədir. Ona görə də siyasətçilər, siyasi təhlilçilər, tədqiqatçılar və sadə vətəndaşlar bu reallığı Ümummilli Liderin xalqımız qarşısında ən böyük tarixi xidmətlərindən biri kimi dəyərləndirirlər.

Yaxşı xatırlayırıq, ulu öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona Özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" ,- deyə qətiyyətlə vurğulamışdı. Daim öz Liderinə - Heydər Əliyev şəxsiyyətinə güvənərək dövlətin və dövlətçiliyin keşiyində mətinliklə dayanan, qətiyyətli iradə nümayiş etdirən Azərbaycan xalqı növbəti dəfə Ümummilli Liderin çağırışını ən yüksək səviyyədə dəyərləndirərək 2003-cü ildə bir daha Heydər Əliyev siyasətinə "HƏ" dedi və onun ən yaxın silahdaşı olan cənab İlham Əliyevə etimad göstərdi.

Tarix Ümummilli Liderin inamının və xalqın etimadının özünü doğrultmasına şahidlik etdi. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri onun siyasi varisi cənab İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirdi, Heydər Əliyevin arzuları reallığa çevrildi. Cənab İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsindən sonra keyfiyyətcə yeni mərhələ başlandı, yeni tarixi nailiyyətlərə imza atıldı, xalq-iqtidar birliyi daha da möhkəmləndi, Azərbaycan regionda aparıcı güc mərkəzinə və lider dövlətə, ən əsası isə qalib ölkəyə çevrildi.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 19 ildə cərəyan edən proseslər, əldə olunan nailiyyətlər və bütövlükdə mövcud reallıqlar artıq təsdiqləyir ki, Heydər Əliyev yolu Azərbaycanın möhtəşəm nailiyyətlərinin əsasını təşkil edir. Ulu Öndərin siyasətini uğurla, uzaqgörənliklə davam etdirən Prezident İlham Əliyev Azərbaycanın iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, ikitərəfli və çoxşaxəli münasibətlərinin inkişafını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, xalq-iqtidar birliyinin, milli həmrəyliyin gücləndirilməsini, mürəkkəb şərtlər və şərait fonunda, sərt geosiyasi mübarizə və rəqabətin aparıldığı vəziyyətdə milli hədəflərin reallaşmasını təmin etdi.

Ümummilli Liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla addımlayan müstəqil Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni strateji nailiyyətlərə müvəffəq olur, milli dövlətçilik tariximizin növbəti şərəfli və qürurlu səhifələri yazılır. Tolerantlıq nümunəsi və multikulturalizm ünvanı, beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi səciyyələndirilən Azərbaycanın inkişaf yolu bir çox ölkələr üçün örnəkdir. Təsadüfi deyil ki, dünyanın nüfuzlu ekspertləri və mötəbər strateji tədqiqat mərkəzləri, aparıcı reytinq institutları Azərbaycanın inkişaf modelini mütərəqqi nümunə kimi dəyərləndirir və ölkəmizin gələcəyinə dair pozitiv rəy və proqnozlar ifadə edirlər.

Tarixi əhəmiyyətə malik ən mühüm məqam isə budur ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənin bütövlüyünü, tarixi ədaləti bərpa etmək uğrunda ləyaqətli və qətiyyətli mübarizə aparan Azərbaycan xalqı iradəsini ortaya qoyaraq haqq savaşında ali məqsədinə nail oldu, 44 günlük Vətən müharibəsində qazanılan, son 200 illik tariximizdə bənzəri olmayan böyük Qələbə sayəsində torpaqlarımız işğaldan azad, ərazi bütövlüyümüz və milli ləyaqətimiz isə bərpa edildi. Beləliklə, zaman torpaqlarımızın uzunmüddətli hərbi-siyasi əsarətdən xilasına nail olan Azərbaycanın Liderinin Vətənə, xalqa və dövlətə sədaqət andını, ata vəsiyyətini şərəflə yerinə yetirməsinə şahidlik etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bir daha sübuta yetirdi ki, onun sözü imzası qədər dəyərlidir.

Bu gün işğaldan azad edilmiş, üçrəngli bayrağımızın qürurla və əzəmətlə dalğalandığı ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmin torpaqlara hər bir səfəri təntənəli Zəfər yürüşünün davam etdiyini göstərir, qalib Azərbaycan Böyük Qayıdışı, dayanıqlı və layiqli məskunlaşmanı yüksək səviyyədə təmin etmək iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirir.

Beləliklə, tərəqqi və Zəfər yolu Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı yeni hədəflərə, yeni zirvələrə aparır. Müstəqil Azərbaycan Heydər Əliyev yolunun Müzəffər davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə strateji hədəflərinə doğru inamla irəliləyir. Bütün bu nailiyyətlər və qürurverici reallıqlar Heydər Əliyev ideyaları və siyasətinin təntənəsi, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsi, dövlətimizin qüdrətinin ifadəsidir.

Ardı Səh. 5

# Müstəqil Azərbaycan Heydər Əliyevin əbədiyaşar ideyaları və zəngin siyasi irsi əsasında tarixi nailiyyətlərə imza atır

Əvvəli Səh. 4

*- Tahir müəllim, ulu öndər Heydər Əliyevin əbədiyaşar ideyalarından və zəngin dövlətçilik irsindən bəhs etdiniz. Şübhəsiz ki, Heydər Əliyev irsi Azərbaycan xalqının milli-mənəvi sərvəti, dövlətçiliyimizin siyasi-ideoloji sütunudur. "Heydər Əliyev İli" çərçivəsində həyata keçiriləcək tədbirlərin ümummilli liderin siyasi irsinin öyrənilməsi baxımından əhəmiyyəti nədən ibarətdir?*

- Heydər Əliyev öz zəngin dövlətçilik təcrübəsi və bənzərsiz liderlik keyfiyyətləri ilə Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə - müstəqilliyi daimi, dönməz və əbədi etməyə müvəffəq olmuş, xalqımıza qürur və iftixar mənbəyi olan çoxsaylı tarixi nailiyyətlər qazandırmış, yeni, müasir və müstəqil Azərbaycan reallığını yaratmış müdrik dövlət xadimidir.

Prezident İlham Əliyevin 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi, "müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir". Bəli, Heydər Əliyev fenomeni zaman və məkan anlayışlarının fövqündədir.

Yəni onun dövlətçilik irsi və parlaq ideyaları hər zaman - bütün dövrlər üçün aktualdır. Heydər Əliyev ideyaları həm xalqımızın mənəvi-siyasi sərvəti, həm də Azərbaycan dövlətinin inkişafını, xalqımızın xoşbəxt gələcəyini təmin edən dəyərlər sistemi kimi müstəsna əhəmiyyətə malikdir. Ulu Öndərin ideyaları, eyni zamanda, milli həmrəyliyi təmin edən, dünya azərbaycanlılarını vahid məqsəd ətrafında - Azərbaycan naminə birləşdirən məfkurədir. Ümummilli Liderin siyasi irsi dövlətçilik konsepsiyasıdır. Ona görə də ölkəmizdə və respublikamızın hüdudlarından kənarda Heydər Əliyev irsinin öyrənilməsi ilə əlaqədar ardıcıl, məqsədyönlü və sistemli fəaliyyət həyata keçirilir. Xüsusi vurğulamaq lazımdır ki, Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ümummilli Liderimizin zəngin irsinin araşdırılmasında və gənc nəslin bu irsin öyrənilməsinə təşviq olunmasında vacib rol oynayır. Yeni Azərbaycan Partiyası da Heydər Əliyev irsinin və ideyalarının təbliği istiqamətində sistemli fəaliyyət göstərir. Qeyd edim ki, YAP-ın Proqramında Heydər Əliyev irsinin təbliği və təşviqi partiyanın əsas hədəflərindən biri kimi göstərilib, onun həyatının Vətənə, xalqa və dövlətə xidmət nümunəsi olduğu qeyd edilib.

"Heydər Əliyev İli" ilə əlaqədar təsdiqlənən Tədbirlər Planı olduqca zəngin, rəngarəng və çoxşaxəlidir. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı da 2023-cü ildə görüləcək işləri və ümumi fəaliyyət istiqamətlərini müəyyən edən Tədbirlər Planı hazırlayıb və sənəd partiyanın İdarə Heyətinin iclasında müzakirəyə çıxarılacaq. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı olaraq Ümummilli Liderin 100 illiyinə həsr olunmuş müsabiqələr, aksiyalar, görüşlər, elmi-praktik konfranslar keçirməyi və bir sıra digər tədbirləri reallaşdırmağı nəzərdə tuturuq.

Bütövlükdə, "Heydər Əliyev İli" çərçivəsində respublika səviyyəsində və ölkəmizin hüdudlarından kənarda keçiriləcək tədbirlər Heydər Əliyev şəxsiyyətinin dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun daha dərindən tədqiq olunması, onun ideya-siyasi xəttinin, zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının yeni nəslə aşılanması, gənc nəslin milli-mənəvi dəyərlər əsasında, vətənpərvərlik və dövlətə sədaqət ruhunda yetişməsi və bütövlükdə müasir müstəqil Azərbaycanın inkişaf yolunun hərtərəfli öyrənilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.



# Azərbaycan və Türkmənistan parlamentləri arasında memorandum imzalanıb

Türkmənistanda rəsmi səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova bu ölkənin Milli Qenqeşi Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovla görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə parlamentlərimiz arasında münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılıb. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib. Türkmənistanın dost və qardaş Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirən Qurbanqulu Berdiməhəmmədov deyib ki, bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü tamam olur. Bu illər ərzində ölkələrimiz bir sıra sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurub. O, son illərdə ölkələrimiz arasında ticari-iqtisadi göstəricilərin daha da yüksəldiyini, bununla belə, əməkdaşlığın müxtəlif istiqamətlərdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirib.

Azərbaycanla Türkmənistanın bir çox beynəlxalq platformalarda da əməkdaşlıq etdiyini deyən Xalq Məsləhətinin sədri, həmçinin Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığa diqqət çəkib. Azərbaycanın təşəbbüsü ilə Hərəkatın Parlament Şəbəkəsinin yaradılmasının önəmini qeyd edən Q. Berdiməhəmmədov bildirib ki, Türkmənistan Şəbəkənin işində fəal iştirak etmək niyyətindədir. Vurğulanıb ki, təşkilatın Bakıda keçirilən birinci konfransında Türkmənistan Milli Qenqeşi Məclisi sədrinin iştirakı bunun təsdiqidir.

Göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü ifadə edən Milli Məclisin sədri Sahibə Qafarova deyib ki, Azərbaycanla qardaş Türkmənistan arasındakı münasibətlərin bugünkü səviyyəsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı məmnunluq doğurur. O, münasibətlərimizin yüksək səviyyəyə yüksəlməsində iki ölkənin dövlət başçılarının rolunu xüsusi qeyd edib. Azərbaycan və Türkmənistanın bir çox sahələrdə əməkdaşlıq etdiklərini bildirən parlamentin sədri xüsusən energetika, nəqliyyat sahələrində əlaqələrin uğurla inkişafını qeyd edib.

Milli Məclisin sədri deyib ki, Azərbaycanla Türkmənistan arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərimizin qarşılıqlı fəaliyyətidir. Qeyd olunub ki, bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub və bu əməkdaşlığı daha da dərinləşdirmək üçün yaxşı imkanlar var. Azərbaycanla Türkmənistanın beynəlxalq təşkilatlarda bir-birinə dəstək verdiyini xatırladan Milli Məclisin sədri, o cümlədən, beynəlxalq parlament təşkilatlarında da uğurlu əməkdaşlığı qeyd edib. O, xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində əlaqələrin əhəmiyyətini vurğulayıb. Görüş başa çatandan sonra Azərbaycan Milli Məclisi ilə Türkmənistan Milli Qenqeşi Xalq Məsləhəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Sənədi Milli Məclisin sədri Sahibə Qafarova və Türkmənistan Milli Qenqeşi Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov imzalayıblar.

# "Ermənistan UNESCO missiyasının Azərbaycana göndərilməsinə mane olub"



"Azərbaycan dəfələrlə işğaldan azad edilmiş ərazilərə UNESCO-nun texniki missiyasını dəvət etsə də, Ermənistan tərəfi bunun baş tutmasına mane olub". SİA xəbər verir ki, bunu xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, ICOMOS Azərbaycan Milli Komitəsi, ICOM Azərbaycan Milli Komitəsi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə "Mədəni sərvətlərin qorunmasında UNESCO Konvensiyalarının rolu və onların tətbiqinin təkmilləşdirilməsinin aspektləri" mövzusunda keçirilən beynəlxalq elmi konfransda deyib.

Nazir müavini İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) bu ilin əvvəlində Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə texniki missiya göndərdiyini xatırladıb. M.Məmmədquliyev bildirib ki, Azərbaycan tərəfi işğaldan azad edilmiş ərazilərdə mədəni və tarixi abidələrin dağıdılmasının qiymətləndirilməsi üçün UNESCO-nun texniki missiyasının göndərilməsinə tərəfdardır: "Biz istəyirik ki, Ermənistan bu prosesə mane olmasın".

# "Ermənistan mədəni irsimizin məhvi istiqamətində sistemli siyasət həyata keçirib"

"Türk dünyasına məxsus ortaq mirasların UNESCO-nun müvafiq irs siyahılarına birgə təqdim edilməsi məsələlərində qarşılıqlı dəstək vacibdir." Bunu xarici işlər naziri Ceyhun Bayramov UNESCO üzrə Türkiyə Milli Komissiyasının prezidenti Öcal Oğuzun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə səsləndirib. O, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüz siyasəti çərçivəsində ölkəmizin mədəni irsinin məhv edilməsi, talan edilməsi və mənimsənilməsi istiqamətində sistemli siyasətin həyata keçirildiyini bildirərək ötən müddət ərzində mədəni sərvətimizə vurulmuş ziyandan, mədəni irsimizin tarixi-mədəni xarakterinin qəsdən dəyişdirilməsindən bəhs edib. Habelə, ərazilərimizdə mövcud mina təhlükəsi, bunun yaratdığı ciddi humanitar fəsadlardan danışıb.




Ceyhun Bayramov, həmçinin 30 illik işğalın ağır nəticələrinin aradan qaldırılması istiqamətində ölkəmiz tərəfindən atılan əməli addımlar barədə məlumat verərək işğaldan azad edilmiş ərazilərdəki bütün mədəni və dini abidələrin mənşəyindən asılı olmayaraq lazımi qaydada mühafizəsi və bərpası işlərinin aparıldığını qeyd edib. Nazir Ermənistanın törətdiyi kobud pozuntular və qeyri-qanuni fəaliyyətlər barədə Azərbaycanın dəfələrlə UNESCO-ya xəbərdarlıq etdiyini və işğal olunmuş ərazilərə texniki missiya göndərilməsinin zəruriliyi məsələsini qaldırdığını diqqətə çatdırıb.

# Yeni il yarmarkalarında qiymətlər necədir?

**Yeni illə əlaqədar olaraq şəhərin müxtəlif ərazilərində və metrostansiyaların yaxınlığında bayram yarmarkaları açılıb. Qurulan yarmarkaların hər birində bayrama aid hər bir şey tapmaq mümkündür. Bəs bu il qurulan yarmarkalarda hazırkı vəziyyət necədir? İnsanlar qiymətlərdən razıdırmı? Keçən illə müqayisədə bayram yarmarkalarında qiymət artımı müşahidə olunurmu? Məhz elə bu kimi suallara cavab tapmaq üçün SƏS TV olaraq yollandıq şəhərin sözügedən məkanlarında yaradılan yarmarkalara.**



İlk olaraq 28 May metrostansiyasının yaxınlığında yerləşən yarmarkaya daxil olduq. Burada boyları bir-birindən fərqli olan şam ağacları, rəngli zərlər, işıqlar və oyuncaqlar olan stendə yaxınlaşdıq. Stendin qarşı tərəfində dayanan satıcı ilə bir qədər söhbət edib, qiymətlər barədə məlumatlar aldıq. Onun sözlərinə görə, keçən illə müqayisədə qiymət artımı yoxdur: "Yalnız fərq ondan ibarətdir ki, bu il yeni bəzək əşyaları gətirmişik. İnsanların daha çox marağına səbəb olan hədiyyəlik suvenirlər, heykəllər, fincanlar və s. var. Şam ağaclarının qiyməti 5 manatdan başlayaraq 30, 45, 80, 100, 180, 200 AZN aralığında dəyişir.

İnsanlar əsasən 30 və 45 manatlıq şam ağaclarına üstünlük verirlər. Həmçinin rəngarəng işıqlarımız var ki, qiyməti 5 manatdan başlayır 12 manata qədər dəyişir. Lakin ən çox satılan növ isə 5 manatlıq işıqlardır.

Daha sonra şam ağacının üzərini bəzəmək üçün olan zərlərin qiyməti 0.80 qəpikdir. Qar kürələrimizin qiyməti isə 2 manatdan başlayır. Şam ağacı üçün aksessuarlarımızın qiyməti isə müxtəlif qiymət aralığındadır. İnsanların yarmarkaya olan marağı ötən ilə nisbətən azalıb. Fikrimcə, gün keçdikcə bayram alış-verişi edən insanların sayı daha da artacaq".

Daha sonra qiymətləri müqayisə etmək və aradakı fərqi öyrənmək məqsədi ilə qonşu yarmarkaya yollandıq. Burada digərlərindən fərqli olaraq ilk növbədə diqqətimi Yeni il bayramının əsas simvollarını özündə əks etdirən boşqablar və süfrə üçün lazımi olan avadanlıqlar çəkdi.

Satıcının sözlərinə görə, bu cür boşqabların qiyməti 6 manatdan başlayır, bıçaq setləri 36 nəfərlik 40 manatdır. Rəngli işıqlar isə 5 manatdan başlayır. Şam ağacları üçün istifadə olunan bəzək əşyalarımız isə müxtəlifdir. Onların da qiyməti 6 manatdan başlayır.

Müxtəlif yeni il əşyalarımız var ki, qiyməti həm münasib, həm də görünüş baxımından göz oxşayır. Keçən ilə nisbətən bu il qiymət artımı azda olsa var. Daha sonra Yeni il üçün şəkillərimiz var qiymətləri 1 və 2 manatdır. Qeyd edim ki, alıcı səviyyəsi də bu il aşağıdır. Çoxları az bir şey alaraq kifayətlənirlər. Təbii ki, bunun da bir sıra səbəbləri var.

**Şəhər sakini Gülbəniz Həsənov:** "Biz keçən il evimizə bayram bazarlığı etməmişdik. Ötən illərdən qalan əşyaları istifadə



edirdik. Lakin bu il yeni şam ağacı və bəzək əşyaları almaq fikrimiz var. Fikrimcə, bu cür yarmarkaların olması çox yaxşı bir addımdır. Qiymətlər də münasib qiymətədir".

**Şəhər sakini Şahmar Əliyev:** "Mən bu



gün nəvələrimi sevindirmək üçün bir sıra bayram aksessuarları aldım. Lakin keçən il heç bir alış-veriş etməmişdim. Çünki ötən ildən qalanları istifadə etmək imkanımız var idi. Mənim üçün yarmarkadakı əşyaların qiyməti normaldır. Ancaq təbii ki, bu qiymətlər başqası üçün uyğun olmaya bilər".

**Şəhər sakini Leyla Quliyeva:** "Bayram yarmarkalarındakı qiymətlər bahadır. Keçən Yeni il üçün bazarlıq etmişdim. Lakin bu il qiymətlərə nəzər saldıqda görürəm ki, çox böyük fərq var. Düşünmüşdüm ki, övladım üçün yarmarkadan nəsə alaram, amma qiy-



mətləri öyrəndikdən sonra fikrimdən daşındım".

**Şəhər sakini Murad Alıyev:** "Fikrimcə,





yarmarkada hər şey bahadır. Buna görə də bayram üçün alış-veriş etməyə heç nə tapmıram. Məhz bu səbəbdən vəziyyət qəlizdir. Son 3-4 ildə bayram bazarlığı etməmişəm. Düşünürəm ki, qiymət artımı bu cür də davam etsə bazarlıq edə bilməyəcəm".

**Şəhər sakini Aliya Feyziyeva:** "Hələ ki, yeni il əşyalarına baxmağa yenicə başlamışam. Lakin yarmarkada hər kəsin cibinə uy-



ğun əşyalar satılır. Ötən il bayram alış-verişi etməmişdim ona görə ki, bayram aksessuarlarım var idi. Ancaq bu il bazarlıq etməyi düşünürəm".

**Şəhər sakini Orxan Hüseynli:** "Yeni il öncəsi belə yarmarkaların qurulması körpə-



lərin sevincinə səbəb olaraq, bizlərin daha rahat şəkildə alış-veriş etməyimizə şərait yaradır. Yarmarkadakı qiymətlərlə tanış olmuşam və qiymətlər bahadır. Keçən illə nisbətən qiymətlərdə artım müşahidə olunur".

***Banuçiçək Hüseynli***



# “Qardaş yumruğu” dünya mediasında!


УКРІНФОРМ
Мультимедійна платформа іномовлення України
Туреччина й Азербайджан проводять спільні військові навчання
ФОТО, ВІДЕО 05.12.2022 14:01
Туреччина й Азербайджан проводять спільні військові навчання із залученням особового складу різних видів військ, бойової та спеціальної інженерно-саперної техніки, а також засобів військової авіації.
Про це повідомляє Укрінформ із посиланням

Ukraynanın aparıcı KİV-ləri Azərbaycan və Türkiyə hərbçilərinin birgə keçirdiyi ”Qardaş yumruğu” təliminə geniş yer ayırıb. Belə ki, ”Ukrinform”, ”RBK-Ukrayna” informasiya agentlikləri, ”TCN”, ”ZN” və digər xəbər portallarında dərc olunan məqalələrdə Azərbaycan və Türkiyə hərbçilərinin birgə təliminin əhəmiyyəti vurğulanıb.**

Qeyd edilib ki, Azərbaycan ilə Türkiyə arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Azərbaycan-Türkiyə birgə təlimi keçirilir.

Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilən təlim Bakı şəhərini, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini əhatə edir. Məqalələrdə, həmçinin Türkiyənin müdafiə naziri Hulusi Akarın fikirlərinə də yer ayrılıb. Ona istinadla vurğulanıb ki, Azərbaycanda hər hansı təhlükə yaranarsa, Türkiyə ordusu Azərbaycan Silahlı Qüvvələrinin yanında olacaq.


القاهرة 24
أذربيجان تُطلق مناورات عسكرية مشتركة مع تركيا


ТСН СВІТ
Армії Азербайджану та Туреччини пообіцяли діяти спільно у разі небезпеки для країн
06:27, 07.12.22
Фото: Associated Press
Для країн не важливо, від кого буде надходити небезпека


ZN,UA
Турция и Азербайджан начали совместные военные учения
Отрабатываются, в частности, действия артиллерии и десанта.
5 декабря 2022, 14:27
Военнослужащие Турции и Азербайджана начали совместные учения на территории города Баку, а также Астаринского, Джебраильского и Имишлинского районов Азербайджана, сообщает


УКРІНФОРМ
Мультимедійна платформа іномовлення України
Армії Туреччини та Азербайджану готові діяти разом у разі будь-якої загрози - міноборони
07.12.2022 03:57
Будь-яка загроза чи провокація проти Туреччини чи Азербайджану - це загроза проти обох країн. Друзів та ворогів країни бачать однаково й коли необхідно, знають як діяти єдиною армією.


NOI
Турция готова действовать вместе с армией Азербайджана в случае любых угроз
Министр национальной обороны Турции Хулуси Акар заявил о готовности армии страны совместно с вооруженными силами Азербайджана отражать любые возможные вызовы или угрозы для

Bundan başqa Moldovanın aparıcı KİV-ləri də Azərbaycan və Türkiyə hərbçilərinin birgə keçirdiyi ”Qardaş yumruğu” təliminə geniş yer ayırıb. Belə ki, Moldovanın ”Noi”, ”Politik”, ”Timpul” və digər xəbər portallarında dərc olunan məqalələrdə Azərbaycan və Türkiyə hərbçilərinin birgə təliminin regionda böyük təlimlərdən biri olduğu vurğulanıb.

Məqalələrdə yazılıb ki, Azərbaycan ilə Türkiyə arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilən təlim Bakı şəhərini, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini əhatə edir. Məqalələrdə, həmçinin Türkiyənin müdafiə naziri Hulusi Akarın fikirlərinə istinadla qeyd edilib ki, Azərbaycanda hər hansı təhlükə yaranarsa, Türkiyə ordusu Azərbaycan Silahlı Qüvvələrinin yanında olacaq.

Misirin ”Cairo.24” və ”Al-diplomasy” portallarında Azərbaycan-Türkiyə birgə hərbi təlimləri haqqında xəbərlər yayılıb. AZƏRTAC-a istinadla yayılan xəbərlərdə qeyd olunub ki, təlimlər iki ölkə arasında mövcud olan hərbi əməkdaşlığa dair Sazişə əsasən keçirilir. Misir oxucularının diqqətinə çatdırılıb ki, təlimlərə Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələri cəlb olunub.

Xəbərdə qeyd olunub ki, paytaxt Bakı, həmçinin Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərində keçirilən təlimlərdə Azərbaycan Ordusunun Quru və Mühəndis qoşunları, Xüsusi Təyinatlı və Hərbi Hava Qüvvələri, habelə Raket və Artilleriya Qoşunlarının bölmələri Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə birgə müxtəlif təlim döyüş tapşırıqlarını yerinə yetirirlər.

# “7 şəhid övladının adına 5 min manat məbləğində depozit açılıb”

“Müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə Fond tərəfindən xərclənən vəsait 22 449 998.04 AZN təşkil edir”. SİA xəbər verir ki, bu sözləri ”YAŞAT” Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov mətbuat konfransında qeyd edib.



Fondun rəhbəri qeyd edib ki, 184 şəxs müalicə edilməsi məqsədi ilə Türkiyə Respublikasına göndərilmiş, onlardan 177-si ağır yaralı, 7-si isə şəhid ailəsi üzvüdür: ”Müalicə alanlardan 160-ı ölkəyə geri qayıtmışdır. Hazırda 23 ağır yaralının və 1 şəhid ailəsi üzvünün müalicəsi Türkiyə Respublikasında davam edir. ”YAŞAT” Fondunun dəstəyi ilə ölkəmizə gətirilən Türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə edilib. 10 mart 2021-ci il tarixdə Türkiyə Respublikasından dəvət olunan həkim tərəfindən komada olan ağır yaralılar müayinə edilib. 28 fevral - 07 mart 2021-ci il tarixlərdə İsrail dövlətindən hərbi xəsarətlərin müalicə edilməsi üzrə ixtisaslaşmış 8 mütəxəssis gətirilib, qeydiyyatı aparılmış ağır göz problemləri olan 148 nəfər şəxs müayinə edilib. Müayinə nəticəsinə uyğun olaraq 30 nəfər əməliyyat edilib, əməliyyat nəticəsində 2 nəfərin görmə qabiliyyəti bərpa olunub. 55 nəfərə protez göz qoyulub, 82 nəfər isə sadəcə müayinə edilib”.

Fondun rəhbəri qeyd edib ki, məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə Fond tərəfindən xərclənən vəsait 41 042 300.00 AZN təşkil edir. Onun sözlərinə görə, məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə şəhid ailə üzvlərinin 5 448, itkin ailə üzvlərinin 7 və yaralıların 6 798 müraciəti olmaqla ümumilikdə 12 253 müraciət təmin edilib: ”27 sentyabr 2020-ci il tarixindən sonra dünyaya gələn 104 şəhid övladı ilə bağlı Fond tərəfindən ”Onlar bizə əmanət” layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində yeni doğulmuş şəhid övladlarının zəruri xərclərinin qarşılanması məqsədi ilə 1 000 AZN məbləğində maddi yardım edilib və şəhid övladlarının adına 5 000 AZN məbləğində depozit hesabı açılıb. Hər iki valideynini itirən 7 şəhid övladının adına 5000 AZN məbləğində depozit hesabı açılıb. Onların içərisinə Bərdə və Gəncə terrorunda valideynlərini itirmiş uşaqlar da daxildir”.

***Banuçiçək Hüseynli***

# Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu - daş yaddaşımızdan soraqlar

Dövlət tərəfindən, bütün sahələrə olduğu kimi, xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə, qalalara, istehkamlara, məbədlərə, təbiət qoruqlarına diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində "Şirvanşahlar Saray Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəb-məscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" Alban məbədi, "Aşağı Karvansaray", "Şəki-xanovların evi", Quba rayonunun Xınalıq kəndində "Əbu-Müslüm" və "Xıdır Nəbi" məscidləri, Şərur rayonunda "Qudi-Xatun" türbələri, Babək rayonunda "Əshab-ül-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi Məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" Xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb. Görülən işlər tarixin daş yaddaşı olan abidələrin nəsillərdən-nəsillərə ötürülməsində əhəmiyyətlidir. Milli-mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlər davamlı olaraq həyata keçirilir. Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət tarix-bədii qoruğu, Nardaran tarix-mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, "Çıraqqala" Tarixi-Memarlıq Qoruğu, "Şabran şəhəri" Tarixi Qoruğu, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur.









## QORUQLAR MÜASİR TƏLƏBLƏRƏ CAVAB VERƏN TURİZM OBYEKTLƏRİNƏ ÇEVRİLMƏKDƏDİR

Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Ziyarətçilərin qoruqları rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Qoruqların bir qismindən turizm məqsədləri üçün istifadə edilir. Son illərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu və "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu yaradılıb. "Qobustan" Milli Tarix-Bədii Qoruğu ərazisində qoruğun yeni inzibati binası tikilmiş və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyası yaradılmışdır. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun və "Qobustan" Milli Tarix-Bədii Qoruğunun ərazisində yerləşən abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış və yeni turizm marşrutları müəyyən olunmuşdur. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir. Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu da dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir. Qoruğun memarlıq abidələrindən biri də XIX əsrdə inşa olunmuş əsgər kazarmasıdır və hazırda dövlət mühafizəsinə götürülüb. Bina yerli inşaat materiallarından istifadə olunmaqla, ənənəvi memarlıq üslubunda inşa edilib. Tikili giriş hissədən və əsas zaldan ibarətdir. Hazırda binada bərpa işlərinə başlanılıb və "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun fond otaqları kimi fəaliyyət göstərəcək.

## QALA DİVARLARI DAXİLİNDƏKİ İKİ ABİDƏNİN-RƏSM QALEREYASI VƏ QORUĞUN İNZİBATİ BİNASINDA TƏMİR-BƏRPA İŞLƏRİ YEKUNLAŞIB

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış oldular. Qoruğun ərazisində Qala divarları daxilindəki iki abidənin - Rəsm Qalereyası və qoruğun inzibati binasında təmir-bərpa işləri yekunlaşıb. Bu abidələrin hər ikisi XIX əsrdə çar Rusiyası əsgərlərinə məxsus kazarma kimi inşa edilib. XIX əsrdə inşa edilmiş və hazırda dövlət mühafizəsinə götürülmüş tarixi bina ənənəvi Şəki memarlığı üslubunda tikilib. Təəssüf ki, sovet dövründə bu binada xəstəxana fəaliyyət göstərib və nəticədə onun memarlıq irsi tamamilə pozulub, bir sıra əlavələr edilib. Bu memarlıq abidəsi hazırda tarixi memarlıq üslubunda bərpa və konservasiya edilir, daxili tərtibatı iaşə obyekti və tədbirlərin keçirilməsi üçün uyğunlaşdırılır.İnzibati bina yerli memarlıq üslubunda, dağ-qaya daşından və bişmiş kərpicdən inşa olunub. Binanın memarlıq irsi qorunmaqla onun fasadı, dam örtüyü, döşəməsi, pilləkənləri bərpa olunub, interyeri inzibati bina üçün uyğunlaşdırılıb. Məlumat verilib ki, binada kommunikasiya xətləri, istilik sistemi qurulub, inzibati heyətin fəaliyyəti üçün bütün şərait, fond və arxiv otaqları yaradılıb. İnzibati binanın ümumi sahəsi 324 kvadratmetrdir. Qoruqdakı şəbəkə emalatxanasının yerləşdiyi bina dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir. Binaya ümumi sahəsi 127 kvadratmetr olan əsas və sahəsi 30 kvadratmetr olan yardımçı tikililər daxildir. Hazırda bərpa olunan binadan "Şəbəkə evi" emalatxanası kimi istifadə ediləcək. Eyni zamanda, burada yeni şəbəkə ustalarının yetişdirilməsi üçün "Şəbəkə Təlim-Tədris Mərkəzi" fəaliyyət göstərəcək.Vurğulayaq ki, burada dövlətimizin başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya qoruqdakı dairəvi məbəddə aparılan təmir-bərpa işləri barədə də məlumat verilib. Bildirilib ki, dairəvi məbəd XIX əsrin əvvəllərində tikilmiş və dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir. Dairəvi məbədin memarlığı Qafqaz Albaniyasının qədim məbədlərinin memarlıq üslubuna oxşardır. Bina XIX əsrdə pravoslav kilsəsi kimi fəaliyyət göstərib, daha sonra sovet dövründə anbar kimi və digər təyinatlar üçün istifadə edilib. Bina ilkin variantda sırf dairəvi formada olub, daha sonra ona üç tərəfdən köməkçi tikililər əlavə edilib. Bu binada son 30 il ərzində Şəki Xalq Tətbiqi Sənəti Muzeyi fəaliyyət göstərib. Hazırda binada bərpa işləri aparılır.Tarix-Diyarşünaslıq Muzeyində davam edən bərpa işləri ilə tanışlıq zamanı məlumat verilib ki, Tarix-Diyarşünaslıq Muzeyinin binası dövlət mühafizəsinə götürülmüş, XIX əsrin sonlarında tikilmiş memarlıq abidəsidir. Bu bina XIX əsrdə rus əsgərləri üçün kazarma binası kimi tikilib. Bina ənənəvi yerli tikinti materiallarından (çay daşı və bişmiş kərpic) və Şəki memarlığı üslubunda inşa edilib. Muzeydə təxminən 2461-dən artıq eksponat var. Hazırda binada təmir-bərpa işləri davam edir. 1982-ci ildən rəsm qalereyası kimi istifadə edilən bina dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir. Binanın tarixi-memarlıq üslubu qorunmaqla onun fasadı, dam örtüyü bərpa edilib, kommunikasiya sistemi tamamilə yenidən qurulub. Rəsm Qalereyasının fondunda 254 eksponat saxlanılır. Onlardan 61-i rəsm əsəri və 8-i heykəl olmaqla 69 eksponat hazırda ekspozisiyada sərgilənir, 185-i isə qalereyanın fond otağında mühafizə olunur. Ekspozisiyadakı əsərlər Azərbaycan incəsənət tarixinin, onun mövzu və üslubca müxtəlif istiqamətlərinin, inkişaf dövrlərinin ziyarətçilər tərəfindən daha dərindən başa düşülməsi üçün tarixi ardıcıllıqla sıralanıb. Ekspozisiyadakı incəsənət əsərlərinin mühafizəsi məqsədilə müvafiq temperatur və rütubət rejimi üçün zəruri olan sistem quraşdırılıb. Göründüyü kimi, ölkə ərazisində olan qoruqlarda, tarixi ərazilərdə dövlət tərəfindən genişmiqyaslı bərpa-konservasiya, elmi-tədqiqat, yenidənqurma və abadlaşdırma işləri aparılıb və bu iş davam etməkdədir. Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə, qəza vəziyyətinə düşmüş tarixi və mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılır.

***Zümrüd BAYRAMOVA***



# Qardaş birliyindən İRANA CAVAB!

İki qardaş ölkənin, Türkiyə və Azərbaycanın ənənəvi olaraq növbəti birgə hərbi təlimlərə start verməsi, özü də bunu İran tərəfinin hərbi təlimlərinin ardınca təşkil etməsi təsadüfi deyil, qonşu dövlətlərə, xüsusilə, "əzələ nümayiş etdirmək" niyyətinə düşən qüvvələrə tutarlı cavabdır. Araz çayı üzərində körpü salaraq, "desant qüvvələr"lə "güc nümayişi" edən qonşu dövlət İran hansı mesajı vermək istəyirdisə ondan qat-qat artıq cavabını almış oldu və heç şübhəsiz ki, bu cavabla öz hesabını da götürdü.

Təlim zamanı müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, onların qarşılıqlı əlaqədə fəaliyyətinin təşkili, çaylar üzərindən keçid açmaq məqsədilə panton körpülərin salınması, şərti düşmənin dərinliyinə desant endirilməsi üzrə müxtəlif tapşırıqlar icra edən iki qardaş ölkənin vahid ordusu düşmən qüvvələri lərzəyə saldı desək, yanılmarıq. Əvvəla ona görə ki, hərbi texnikalardan, hərbçilərin döyüş hazırlıqlarından tutmuş, tapşırıqların peşəkarcasına yerinə yetirilməsinə qədər mükəmməl şəkildə hazırlanan və aparılan təlimlər düşmən qüvvələrin gücümüzdən, qüdrətimizdən ehtiyatlanması, narahat olması, hətta qorxması üçün belə yetərlidir. Digər tərəfdən də bizi düşmən bəlləyən qüvvələrə bir daha xatırladıldı ki, iki qardaş ölkənin vahid ordusu var və bu ordu yenilməzdir, düşmənin başını əzməyə hər an hazırdır və buna qadirdir. Bu barədə ölkə rəhbərimiz, Ali Baş Komandan, cənab Prezident İlham Əliyev də xatırlatma edib. "Azərbaycana və ya Türkiyəyə qarşı məkrli planları olanlar bilməlidirlər ki, türk ordusu tək deyil, orada, həmçinin bizim ordu da var. Bizim ordu isə tək deyil, o cümlədən orada türk ordusu da var. Sərhədimizdə təxribatları planlaşdıranlar, bizi qorxutmağa çalışanlar bu planlarını yaddan çıxarmalıdırlar", deyə ADA Universitetində son çıxışı zamanı bəyan edən dövlət başçımız əslində, qonşu dövlətin təhdidlərinə yerindəcə tutarlı cavab vermişdi. Araz çayı üzərindən körpü salmaq ssenarisi ilə əslində bizi təhdid edən İran rejiminə cənab Prezident çox kəskin cavab verməklə, qarşılarında "türk birliyinin olması" barədə bir mesaj da göndərdi. Artıq Prezidentimizin mesajlarının təsadüfi olmadığını İran tərəfi əyani şəkildə bir daha gördü və əmin oldu ki, onlara nəinki adekvat cavab verildi, hətta bundan daha artıq şəkildə kəskin cavab almış oldular.





Azərbaycanla sərhəddə Ermənistan tərəfinin maraqlarını müdafiə etmək məqsədi ilə Araz çayı üzərində körpü salaraq, "desant qüvvələr"lə "güc nümayişi" sərgiləyərək keçirdiyi son təlimlərdən az sonra İran öz cavabını aldı. Araz çayı üzərindən körpü salınması ilə, Azərbaycanı açıq şəkildə hərbi müdaxilə ilə təhdid etmək niyyətində olan molla rejimi üçün iki qardaş ölkənin birgə başladığı hərbi təlimlər soyuq duş effekti oldu. Rəsmi Bakının cavabı özünü çox gözlətmədi və bildirildi ki, təhdidlər hesaba belə alınmır və Azərbaycan öz maraqlarından geri çəkilməyəcək. Xüsusilə, qardaş ölkə olan Türkiyə ilə Azərbaycanın təlimləri birgə keçirməsi təsdiq edir ki, İran tərəfinin təhdidlərinin zərrə qədər mənası, təsiri yoxdur. Azərbaycana qarşı istənilən təxribata iki qardaş ölkənin vahid ordusu tərəfindən cavab veriləcəyi mesajı İran tərəfinə də, elə Ermənistana da çatdırıldı. Çatdırıldı ki, təlimlər istənilən an düşmən təxribatlarına veriləcək cavabın məşq edilməsidir.

Qardaş birliyindən İranın molla rejiminə cavab birinci dəfə deyil. Xatırladığımız kimi, hələ 2001-ci ildə Azərbaycana müdaxilə etmək həvəsində olan İrana belə bir cavab tam vaxtında verilmişdi. Həmin dövrdə Xəzər dənizinin Azərbaycana aid sularına daxil olan hissəsində yeni neft yataqları aşkar edilərkən də İranın hərbi gəmilərlə ərazimizə müdaxilə etməsini, Astara istiqamətində 30 kilometrə qədər irəliləməsini, danışıqlardan belə imtina etməsini yaxşı xatırlayırıq. Onu da xatırlayırıq ki, bu məqamda da qardaş Türkiyə öz Hərbi Hava Qüvvələrinə məxsus təyyarələri Bakıya göndərmişdi və "Türk şahinlərinin" Azadlıq meydanı üzərində sərgilədiyi şou o zaman molla rejiminə yerində verilən cavab oldu. Əlbəttə ki, qardaş ölkənin belə bir addımı tam yerinə düşdü və bundan qorxuya düşən İranın geri çəkilməkdən başqa çıxış yolu qalmadı. Belə nümunələr yenə də var və qardaş birliyinin cavabını İran dəfələrlə görüb və yaxşı bilir, amma görünür, həmin vaxtdan iki onillik keçdikdən sonra bu birlik barədə molla rejimi unudub və xatırlatmalara ehtiyac duyurmuş.

İran tərəfinin keçirdiyi təlimlərlə qardaş birliyinin nümayiş etdirdiyi təlim müqaisəyə belə gəlməz, amma buna nəzər salmağa, təhlil etməyə dəyər. Onsuz da bütün dünya bu təlimlər arasındakı fərqi çox yaxşı gördü. Gördü ki, İran az qala ötən əsrin ortalarına məxsus köhnə silah-sursatla, hərbi texnika ilə Araz çayı sahillərinə yaxınlaşmasının, burada oyunbazlıq etməsinin, guya əzələ nümayiş etdirməsinin ardınca Azərbaycan və Türkiyənin qardaş birliyi ən müasir silahlarla molla rejiminə əsl təlim dərsi keçdi. Bu dərs, yəni vahid ordu şəklində havadan və qurudan döyüş məşqlərinin keçirilməsi, Araz çayı üzərindən panton körpülərin salınması, bununla da o taya keçməyin çətin olmadığının nümayişi məhz İrana verilən cavab oldu. Bu cavab ondan ibarət idi ki, iki qardaş ölkənin vahid ordusu qarşısında nəinki İranın, ümumiyyətlə heç bir ölkənin dayana bilməyəcəyi bir reallıqdır.

Birgə təlimlərdə iştirak üçün Türkiyənin F-16-ları Azərbaycana göndərməsi məhz 2001-ci ildə İranın Xəzər dənizində Azərbaycanın suveren sularını pozduğu zaman "Türk şahinləri"nin Bakıya gəlməsinin tam oxşarı hesab edilir. Bu, yəni rəsmi Ankaranın eyni ilə ikinci gedişi isə o deməkdir ki, qardaş birliyi davam edir, daha da möhkəmlənib və cavab eyni şəkildə olmalıdır. Sözsüz ki, atılan addımlar, qardaş ölkə ilə birgə keçirilən təlimlər İranın bir qədər əvvəl Araz çayı sahillərində keçirdiyi hərbi təlimlərinə, təhdidlərinə layiqli və kəskin cavab kimi başa düşülür. İki qardaş ölkənin birgə təliminin "Qardaş yumruğu" adlandırılması da bu baxımdan əbəs yerə deyildi. Azərbaycan və Türkiyənin birgə təlimləri məhz bizə özünü göstərmək istəyən, əzələ nümayişi etdirmək niyyətində olan, hətta təhdidlər barədə xam xəyallara düşən molla rejiminə "qardaş yumruğunun" silkələnməsi, qardaş birliyinin tutarlı cavabıdır.

Azərbaycanla hədə dilində danışmağa cəhd edən İran öz layiqli cavabını almaqla yerində otuzduruldu. Molla rejiminə əyan oldu ki, əgər Azərbaycan və Türkiyə hərbi təlimlərini belə keçirirsə, deməli, əsl hərbi əməliyyat aktiv fazada onlar üçün daha acınacaqlı ola bilər. Əlbəttə ki, İran belə bir cavabı almamaq üçün gərək vaxtında kifayət qədər düşünəydi. İslam Respublikası kimi özünü dünyaya sırıyan bir ölkə, vətəndaşlarının böyük əksəriyyəti müsəlman olan ölkəyə qarşı hədsizlik etməsinin, qeyri müsəlman, özü də işğalçı, separatçı, təxribatçı ölkəyə yardım etməklə müsəlman əhaliyə qarşı olmasının qəbuledilməz olduğunu başa düşməyən, dərk etməyən İran ən azından iki qardaş ölkənin vahid ordusu amilini anlamalı idi ki, belə bir kəskin cavab almaq məcburiyyətində qalmasın. Anlamalı idi ki, qardaş birliyi ilə tam zamanında cavabını alacaq və bu, onun üçün də, ona sığınanlar üçün də çox ciddi zərbə hesab olunur. Bilməli idi ki, Azərbaycanın bölgədə yaratdığı reallıqla barışmaqdan savayı çarəsi yoxdur və əks halda qarşısında qardaş birliyini, "qardaş yumruğunu" görməli olacaq.

Həmçinin bu cavab, yəni iki qardaş ölkənin birgə təlimi Ermənistana da kifayət qədər təsirli mesaj və tutarlı cavab sayılır. İndi artıq ermənilər dərk etmək məcburiyyətində qalırlar ki, İrana güvənməklə də böyük səhvə yol verirlər, çünki onların güvənc yeri, yəni molla rejimi Türkiyə və Azərbaycanın qardaş birliyi, "qardaş yumruğu" qarşısında tab gətirmək imkanına, gücünə malik deyil. Rəsmi İrəvan gec də olsa anlamalıdır ki, İran məhz Azərbaycan əleyhinə çıxmaq üçün Ermənistanla əməkdaşlığını daha da gücləndirir və bu zaman işğalçı ölkə alət olaraq istifadə edilir, amma yeri gələndə isə İranın nəinki separatçıları, heç özünü belə qardaş birliyindən, "qardaş yumruğu"ndan qorumaq imkanı, gücü yoxdur, bir sözlə, İran öz cavabını bu mənada da almış oldu. İndi molla rejimi bilir ki, onlara bir qədər əvvəl güvənən, yaxud güvənmək istəyən ermənilər daha güvənə bilmirlər və bu fakt özü molla rejiminin başına daş kimi dəymiş sayılır. Artıq rəsmi Tehran bundan sonra özünü İrəvana necə göstərə biləcək? Yaxud, İranın molla rejiminin nümayəndələrinin sərsəm fikirləri ermənilər üçün boş söz yığınından başqa bir şeyə bənzəməz. Bu da onlar üçün bir dərs hesab olunur və görünür, iki qardaş ölkənin təlimi, qardaş birliyi İrana bir çox istiqamətdən zərbə oldu və sadalananlar ən gözəl, ən tutarlı cavab olaraq qiymətləndirilir.

*İnam Hacıyev*

# Yolda piyada vurma hadisələrinin əsas səbəbi NƏDİR?

## QURUM RƏSMİSİ AÇIQLADI





"Piyadalar yol hərəkətinin iştirakçısı kimi ən geniş kontingentdi, yəni hər bir hərəkət iştirakçısı mütləq qaydada yollarda piyada kimi hərəkətdədir. Yolda piyada vurma hadisələrinin əsas səbəbi isə sürücü diqqətsizliyi ilə yanaşı, həm də piyada səhlənkarlığıdır. Lakin yol hərəkəti qaydalarına münasibətdə xüsusi ilə piyadalar son dərəcə ehtiyatlı və təhlükəsizliyə əmin olmaqla hərəkətlərini yol infrastrukturunda özləri üçün müəyyən edilən yerlərdə seçməli, əks təqdirdə isə bunun inzibati məhsuliyyət olmaqla yanaşı, həyat və sağlamlıq, eləcə də yolda nizam-intizamın təmin olunması üçün ciddi təhlükə olduğunu unutmamalıdır". Bu sözləri SİA-ya açıqlamasında Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli bildirib.

Onun sözlərinə görə, ağır qəzalar acı nəticələrini görmədim, bilmədim, tələsirdim kimi bəhanələrlə dəyişmir: "DYP bu istiqamətdə ilk olaraq xidməti fəaliyyəti piyada təhlükəsizliyinin təmin olunması üçün paytaxtın bir sıra küçə və prospektlərində elə təmin edir ki, nizamsızlıq baş verməsin və hərəkətin bütün iştirakçılarının fasiləsiz və təhlükəsiz marşurutu başa çatsın.

Digər tərəfdən isə ən böyük iş təhlükəsizliyin təbliğatına yönəlib ki, burada əsas iş media və sosial şəbəkələr üzərindən xüsusən də təhsil müəssisələrinin cəlb edilməsi ilə aparılır. Sosial çarxlar çəkilir, medianın bütün seqmentlərində müxtəlif formalarda piyada mövzusu gündəmə gətirilir ki, bu sahədə cəmiyyətdə məhsuliyyət hissi artırılsın. Təəssüflər olsun ki, bu işlər yalnız aidiyyatı qurumların xüsusən də Daxili İşlər Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Cəmiyyəti narahat edən belə ciddi bir məsələyə ictimai məhsuliyyət hissini aşılaya biləcək böyük dəstəyə ehtiyac var. Bütün pedoqoji kollektivlər, ictimai nüfuzlu şəxslər, sənət adamları, idmançılar, blogerlər, bir sözlə nüfuzundan, mövcud imkanlarından istifadə etməklə hər bir vətəndaşımız əsil dəyişikliklərin şüurda, həyat tərzində və nəhayət mədəni düşüncədə dəyişməli olduğunu dərk etməklə, öz əməli dəstəyini əsirgəməməli və dövlətini narahat edən bütün məsələlərdə onun yanında dayanmalıdır ki, hər bir məsələ müsbətə doğru surətlə öz həllini tapsın!"

*Səbinə Hüseynli*

## "Zəfər Paradı yaddaşlarda əbədi qalacaq"

"Zəfər Paradı müasir Azərbaycanın tarixində möhtəşəm və unudulmaz hadisə kimi yaddaşlarda qalacaq. Böyük Qələbə şərəfinə paytaxtın Azadlıq Meydanında keçirilmiş Zəfər Paradında 3 minə yaxın əsgər və zabitimizlə yanaşı, qardaş Türkiyənin silahlı qüvvələrinin əsgər və zabitlərinin də iştirakı iki ölkənin birliyinin, bütövlüyünün nümayişi idi. Yerli və xarici qonaqların, diplomatik korpus nümayəndələrinin də tədbirə qatılmaları parada bir ayrı rəng verirdi. Şuşa şəhərinə sancılmış qələbə bayrağının Parada gətirilməsi hər birimizi qürurlandırdı, möhtəşəm hisslər yaratdı". Buni SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. A.Hüseynov bildirib ki, Zəfər Paradının ildönümü yaxınlaşdıqca, istər-istəməz o günlərə qayıdırıq, Ordumuzun, xalqımızın, Ali Baş Komandanımızın əzəmətinə bir daha nəzər salırıq: "44 günlük müharibənin hər günü şanlı tarixdir. Hər gün yeni xəbərlər alırdıq, Azərbaycan Ordusunun irəli getdiyi barədə Prezidentimizin verdiyi məlumatları eşidəndə sevincimizin həddi-hüdudu olmurdu, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Əsgər və zabitlərimiz yalnız bir amalla vuruşurdu, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın. Müharibə dövründə xalqımızın mətnliyi, mərdliyi, bir yumruq kimi birləşməsi, vahid komandanlığa, İlham Əliyevə sadiq qalması birliyimizi və gücümüzü daha da artırdı. Ordu və xalq Prezident İlham Əliyevin ətrafında birləşdi. Əslində bu, həm içimizdəki, həm də çölümüzdəki düşmənlərə mesaj idi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin Azərbaycan tərəfindən icra edilməsi 30 illik ədalətsizliyə son qoydu, həm də Azərbaycan xalqının başını ucaltdı, düşməni xar etdi".

*Səbinə Hüseynli*

## "Rus hərbçilərinin yerləşdikləri ərazilər Azərbaycanın suveren əraziləridir"



"Azərbaycan jurnalistlərinin rus sülhməramlıları tərəfindən məruz qaldığı münasibət heç bir çərçivəyə sığmır. Beynəlxalq qanunlara əsasən, sülhməramlılar media təmsilçilərinin normal fəaliyyətinə şərait yaratmalı, ən əsası isə onların təhlükəsizliyini ən yüksək səviyyədə təmin etməlidir". "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, bu praktika hər hansı beynəlxalq münaqişə zonasında yerləşən sülhməramlıların fəaliyyət prinsiplərinə aiddir: "Son olaylarda isə məsələ tamamilə qanunsuzdur. Çünki rus hərbçilərinin yerləşdikləri ərazilər Azərbaycan dövlətinin suveren əraziləridir. Azərbaycanlı jurnalistlərin öz dövlətinin istənilən ərazisində maneəsiz və təhlükəsiz fəaliyyət göstərməsi onların müstəsna hüququdur. Rus hərbçilərinin jurnalistlərimizin Xankəndi istiqamətində hərəkətlərinə maneə yaratması onların mandatına uyğun deyil. Əslində, son insident zamanı iki il ərzində rus sülhməramlılarının özfəaliyyətlə məşğul olması, Xankəndi, Xocalı, Ağdərə və digər nəzarətlərində olan ərazilərdə separatçı rejimə hər cür dəstək verməsi, rəsmi Bakının icazəsi olmadan xarici ölkə vətəndaşlarının qanunsuz səfərlərinə şərait yaratması ilə bağlı iddialar faktlarla ortaya qoyuldu. Azərbaycan jurnalistini öz ərazisinə buraxmayan rus hərbçilərinin yanından Gürcüstan nömrəli maşının hərəkət etməsi faktını hər kəs gördü. Bu səbəbdən dövlət səviyyəsində rus hərbçilərinin qanuni ərazilərimizdəki fəaliyyətsizlikləri ilə bağlı məsələlər ciddi şəkildə araşdırılmalı, zəruri addımlar atılmalıdır".

*Gülyana*

## Heydər Əliyev - 100



**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalamışdır.**

## Bu yol Heydər yoludur, Ulu Öndər yoludur - (Poema)



*Valeh Sefiyev*

I
İki böyük Türk oğlu
Ərdoğan, Heydər oğlu.
Əsrin nəbzini duyub
Bünövrə, təməl qoyub:
Azərbaycan- Türkiyə
Birliyi, qardaşlığı,
Dostluğu, sirdaşlığı
Tarixlərin şöhrəti,-
Tarixlərdə qalacaq!
Bütün arzu, kamını,
Eşqini, ilhamını,
Əzmini, qürurunu,
İşığını, nurunu
Dünya bizdən alacaq.
Bizim bu birliyimiz
Dünyanın dayağıdır.
Dünyanın rahatlığı,
Dincliyi, növrağıdır.
Bunu duymaq çətindi?!...
...Vaxt çatıb, bu gün, indi
Dünya keçir ələkdən.
Xoşlanmır daha dünya
Xoş olmayan diləkdən.
Kim var kimin yanında?-
Düşmən də bunu görür.
Dərhal, göz qırpımında
Hesabını götürür.
...Vaxt çatıb, bu gün, indi
Dünya keçir ələkdən-
Xoşlanmır daha dünya
Xoş olmayan diləkdən.
Vicdansızlar, qansızlar
Bunu bəzən unudur.-
Həyatın, yaranışın
Əzəli qanunudur:
- Aqillər divanında
Günahlar yüz ölçülür,
Bir doğranıb biçilir.
Günahlar bağışlanır;
Günahkarlar əzilir,
Xırdalanıb kiçilir.
Yalanın ətəyindən
Yapışıb, tutub bərk-bərk,
Yalandan həyat umub
Yalana yalvarmarıq.
Mərdanə doğulmuşuq,
Yenə mərdanə varıq.
Yenə ər oğlu ərik!-
Ədalət istəyirik,
Həqiqət istəyirik.
Tanrının səxavəti;
Qəzəb aşıb-daşanda,
Ədavət qızışanda
Od üstünə su tökən,
Mərd, adil, quran, tikən
Əzabkeş nəsillərin,
Eşq dolu könüllərin
Müqəddəs əmanəti
Bütün Yer kürəsinə
Hürriyyət istəyirik.
Bizim bu birliyimiz,
Qardaş əlbirliyimiz
Dərdlərin, bəlaların
İnsanlığın başından
Sovuşmağı üçündür.
Dünyanın səadətə
Qovuşmağı üçündür.
Qoy vicdanlar oyansın,
Sənin kərəmin artsın.
Qoy dünyanın əşrəfi
Gülərüz insanların
Sayı birə-min artsın.
Yol gedən yolçulara
Gözümüz çıraq olsun.
Qoy bu Türk birliyinə
Arvad-uşağı ilə
Kiçik bacısı ilə
Makron da qonaq olsun.
Mən kimlərdən acizəm,
Cəsarətsiz, gücsüzəm?!-
Mehribanlıq yerinə
Məndən acıq, kin görüb,
Düşmən qoluna girib,
Mənə yad olsun onlar
Mənim böyük Allahım,
Mələk Bayraqdarlarım;
Mənim dəmir yumruğum,
Dəmir əsgərlərim var.
Nə alovdan qorxuruq,
Nə oddan qaçırıq biz,
Sal buzu baltalayıb
Yarıb yol açırıq biz.
Bu yol Heydər yoludur,
Ulu Öndər yoludur.
Bizim arzumuz budur:
Dünya səhmana düşsün,
Kamal qələbə çalsın.
Yer kürəsi, kainat
Arxayın nəfəs alsın
Qoy hamının gözündə
Sevinc atəşi yansın.
Qoy dünyanın başına
Bütün xalqlar, millətlər
Gülə-gülə, qol-qola
Halay vurub dolansın.
Niyyətimiz belədir,-
Qüdrətimiz belədir.
...Bizim bu birliyimiz
Dünyanın dayağıdır.
Dünyanın rahatlığı,
Dicliyi növrağıdır.
Özgədir indi dünya,
Güzgüdür indi dünya.
Bir ötəri baxmaqla,
Bura, bəri baxmaqla
Doğru kimdir bilinir,
Aydınlaşır, tanınır,
Zəkamızın gücünə
Bütün dünya, kainat
Bel bağlayır, inanır.
Bizim qayğımız ilə,
Sual, sorğumuz ilə
Ədavət lənətlənir,
İnsanlıq üzə çıxır.
Dünyanın bu başından
O başına, nə vaxtdır
Silah, sursat yerinə
Ruzi, bərəkət axır.

II
Bizim Turan elləri
Bir müqəddəs ocağın
Başında oturacaq-
Bir sinənin altında
Milyon ürək vuracaq.
Fərəh aşıb-daşacaq,
Hamı doğmalaşacaq.
Əcdadların ruhu da
Min illik bir yuxuda-
Beşiyində uyuyan
Məsum bir körpə kimi
Qucaqlayıb dünyanı
Şirin bir kökə kimi
Sevinəcək, güləcək.-
Bizimlədir sabahlar!
Bizimlədir gələcək!
Əsr Türkün əsridir!
Sülh, toy-düyün əsridir!
Ərzin qismətidir bu,
Şövqi, şəfqətidir bu.

III
İki böyük Türk oğlu
Ərdoğan, Heydər oğlu
Əsrin nəbzini duyub
Bünövrə, təməl qoyub:
Azərbaycan- Türkiyə
Birliyindən güc alıb
Mənim Azərbaycanım,
Mənim ürəyim, canım
Hər sınaqdan üzü ağ,
Alnıaçıq çıxacaq.
Qarşımızda daha da
Geniş, aydın, işıqlı,
Al-əlvan yaraşıqlı
Üfüqlər açılacaq.

IV
Nəsillər dəyişəcək,
Qərinələr ötəcək,
Azərbaycan - Türkiyə
Birliyi, qardaşlığı,
Dostluğu, sirdaşlığı
Eralar qət edəcək.-
Bu yol Heydər yoludur !
Ulu Öndər yoludur !

V
Əsirlərin dolanbac
Əzablı yollarında,
Zülmətlərin daha
Qatılaşan, tündləşən,
Sərtləşən, kömürləşən,
Dəmirləşən vaxtında
Azərbaycan-Türkiyə ! -
Bu birliyin, dostluğun
Qardaşlığın işığı
Həyata qənim çıxan,
Ölüm üçün darıxan,
Qan daman, nəfəs tıxan
Zülmətləri boğacaq.
"Azərbaycan dünyaya
Günəş kimi doğacaq!"
Bu yol Heydər yoludur !
Ulu Öndər yoludur !
Biləsuvar rayonu

# Müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin əməyinin bəhrəsidir

**Analar şəxsiyyətlər dünyaya gətirir. Şəxsiyyətlər isə tarix yaradır, tarix yazırlar. Belə yeni tarix yaradan şəxsiyyətlərdən biri də xalqımızın qismətinə düşən Ulu Öndər Heydər Əliyevdir. Ümummilli Lider Heydər Əliyev tək Azərbaycan xalqının deyil, bəşəriyyətin tarixində böyük rol oynamış bir şəxsiyyətdir. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti Azərbaycan xalqının milli dirçəlişinə, öz hüquqlarının bərpa olunmasına, müstəqil, güclü, dünya birliyində nüfuz qazanmış bir Azərbaycan dövlətinin yaranmasına gətirib çıxardı. Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edərkən geridə qalmış bir respublikanı SSRİ-nin inkişaf etmiş bir respublikasına çevirmişdir. Tarix geri dönmür, ancaq təkrar olunur. XX əsrin sonunda SSRİ-nin dağılmasının nəticəsi olaraq, digər müttəfiq respublikalarla yanaşı Azərbaycan da öz müstəqilliyini elan etdi:**



*Qurbanov Sultanəli Şükür oğlu*
*YAP Səbail ƏPT-nın sədri, Fizika üzrə fəlsəfə doktoru, dosent*

1991-ci il oktyabrın 18-də "Azərbaycan Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə müstəqilliyimiz elan olundu. Bu aktla Azərbaycan xalqı imperiya zəncirindən rəsmən azad olsa da və ürəyində həmişə yaşatdığı, həsrətini çəkdiyi azadlıq ideyalarına qovuşsa da dövlət müstəqilliyinin qorunub saxlanılması dahi rəhbərimiz Heydər Əliyevin respublika rəhbərliyinə yenidən qayıdışı ilə reallaşmışdır. Belə ki, 1991-1992-ci illərdə, habelə 1993-cü ilin birinci yarısında ölkəmizdə yaranmış vəziyyət, müstəqillikdən çox anarxiyanı xatırladırdı. Bir-birini əvəz edən hakimiyyət rəhbərləri xalqın ürəyində həmişə yaşatdığı və həsrətində olduğu müstəqilliyi qoruyub saxlamaq əvəzinə milli maraqları şəxsi mənafeyə qurban verərək, cinayətkarcasına səhlənkarlıq nümayiş etdirərək, fəaliyyətdə və inkişafda olan hər bir şeyi dağıtdılar. Anarxiya və hər cür qanunsuzluqlar dövri hesab edilən 1991-1993-cü illər ərzində Azərbaycan dövlətçiliyi ciddi təhlükələrə məruz qaldı. 1993-cü ildə yenidən hakimiyyətə gələn Heydər Əliyev müstəqil Azərbaycanda 10 il hakimiyyətdə oldu. Bu 10 il, güclü, müstəqil Azərbaycan dövlətçiliyinin əsasının qoyulduğu bir dövr oldu, Azərbaycan tarixində yeni bir səhifə açdı, Azərbaycanda yeni, demokratik bir dövlət quruculuğu başladı. Azərbaycan sürətlə beynəlxalq birliyə inteqrasiya olmağa başladı. Ümummilli lider Heydər Əliyev demişdir: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və uğurlarımı təmin edib."

Ümummilli Lider Heydər Əliyev hər kəsə Azərbaycanı sevmək yolunu öyrətdi, Azərbaycanın gələcək inkişafagedəcəyi yolu göstərdi. Bu yol indi Ulu Öndərin siyasi varisi hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. 2003-cü ildə hakimiyyətə gələn cənab Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirməklə Azərbaycanın qüdrətini daha da artırır. Bu gün Azərbaycan dünyanın nüfuzlu ölkələrindən biridir. Heydər Əliyev fenomeni bu gün hər bir azərbaycanlı üçün mənəvi xəzinədir. Heydər Əliyevin həyat və fəaliyyətini öyrəndikdə görürük ki Ulu Öndərin Azərbaycan xalqının və dövlətinin tarixində əvəzolunmaz, misilsiz xidmətləri var. Xalqını, vətənini hədsiz sevən dahi lider Heydər Əliyev milli dövlətçiliyimizin, azərbaycançılıq ideologiyasının əsasını qoyub. Azərbaycan bu gün hər sahədə uğurlar qazanır, nailiyyətlər əldə edir. Bütün bunlar Heydər Əliyev siyasətinin doğru, düzgün olmasını göstərir, onun nəticəsidir. Heydər Əliyevin siyasi irsi bu gün dünyanın müxtəlif regionlarında öyrənilir. Heydər Əliyev işlədiyi dövrlərdə xalqını çox savib; bütün həyatını xalqına xidmətə həsr edib. Azərbaycanımızın bütün bəlalardan qurtarılmasına səbəb ancaq Ulu Öndər Heydər Əliyevin liderlik qabiliyyəti, liderlik bacarığı hesabına olmuşdur. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Xalqın səsini eşidərək hakimiyyətə gəlməsi Azərbaycanın müstəqilliyini qorudu. Ulu Öndərin uzaqgörən siyasəti hesabına Azərbaycan müstəqil oldu, Azərbaycanı dünyada tanıtdı. Daim cəmiyyətin milli-mənəvi zənginliyinin artmasına kömək etdi. Ona görə də bu gün Heydər Əliyevin adı dünyanın ən böyük islahatçılarının, ən böyük uğur qazanan insanların adı ilə yanaşı çəkilir.

Ölkəmiz, doğma Azərbaycanımız öz inkişaf yolunu tapıb. Zəfər sevincini bizə yaşadan Ali Baş Komandan Cənab Prezidentimiz İlham Əliyev bu gün Heydər Əliyev irsinə söykənir. Bu siyasət dəyişən dünyada Azərbaycan maraqlarının qorunmasına və dünyada layiqli yerimizin tutulmasına yönəlib. Heydər Əliyev irsi böyük bir dəryadır. Onun öyrənilməsinə çox böyük ehtiyac vardır. Ümummilli Lider Heydər Əliyevin irsi həmişə dəyişən zamanın tələblərinə cavab verəcək. Ulu Öndər Heydər Əliyev aramızda olmasa da, Onun fikirlərinə həmişə böyük ehtiyacımız var. Onun fikirləri həmişə köməyimizə çatır.

Ulu Tanrı xalqımızı, gənc dövlətimizi xilas etmək missiyasını yerinə yetirə biləcək şəxsiyyəti- Ümummilli Lider Heydər Əliyevi bizlərə yetirdi. Heydər Əliyevin ən çətin şəraitdə düzgün qərar qəbul etmə bacarığı nəticəsində Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq müstəqil dövlətçiliyini qoruyub saxlaya bildi. Möhtərəm Prezident İlham Əliyev : "Heydər Əliyev dahi şəxsiyyətdirböyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir." Bu gün böyük fəxrlə söyləyə bilərik ki, Ulu Öndərin irsi və ideyalarına əsaslanan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə dayanıqlı və dinamik inkişaf edən müstəqil Azərbaycan Dövləti Ümummilli Lider Heydər Əliyevin əməyinin nəticəsidir.Yaşasın daha da inkişaf edən Müstəqil Azərbaycan Dövləti!



Vəli Vəliyev

# Ermənilər, "sülh məramlılar" və Şöhrət muzeyimiz

**Bu günümüzün ən aktual mövzusu Qarabağ, sülhməramlılar, ermənilər və Laçın dəhlizidir. Bünün bu sadalananlar əbəs yerə manşetləri bəzəmir. Qarabağdan, Laçından, Şuşadan, sərhədlərimizdən nigaranıq. Pis xəbərlərin gəlməsini istəmirik, artıq yorulmuşuq. 30 il atəşkəs rejimi olsa da igid oğullarımızın xain düşmən tərəfindən vurulması xəbərləri az gəlmirdi. Bu gün 44 günlük müharibənin bitdiyini, qeyrət qalamız Şuşamızın azadlığa qovuşduğunu, murdar düşmən üzərində qazandığımız qələbəni qeyd edirik. Bu bizin haqqımızdır. Kimsənin torpağında gözümüz yoxdur, amma 200 il idi ki, itirə-itirə gedirdik. Başımız aşağı idi, ermənilər köpəklik etdiklərinə arxalanıb bizi Qarabağdan qovmağı, xalqımıza qarşı vəhşiliklət törətməyi bacarmışdılar. Zaman yetişdi və olanlar oldu...**

Bəli, biz Qalib ölkəyik, Zəfər günümüz, Zəfər bayramımız, enməyən, daim ucalarda olan bayrağımız var. Ən əsası Şöhrət muzeyimizin mətni də, mövzusu da, üstəlik orada qoyulacaq eksponatlar da var. Bundan böyük qüruru nə vaxt hiss etmək olar? Bunu ancaq qalib ölkə, qalib xalq duya bilər.

Bu gün Qalib Azərbaycan məğlub Ermənistana əl uzadır, mehriban qonşuluq şərtlərini təqdim edir, beynəlxalq qanunlara istinad edərək iki ölkə arasında münasibətlərin normallaşmasını istəyir. Başı əzilən, ordusu dağılan, etdiklərinin bədəlini ağırlığı ilə ödəyən işğalçı dövlət isə yenə qitələrə düşüb başqa ssenarist axtarır. Gah Rusiyaya, gah ABŞ-a, gah da Avropadakı böyük bacısı Fransanın qapısına gedir, çörək, pul və silah üçün. Onlar isə hələ də söz verirlər. Görəsən Ermənistan nə vaxt qucaqlardan düşəcək, nə vaxt ağıllanacaq, nə vaxt evinə yığışacaq. Öyrəncəli üzdə abır-həya olmaz, deyiblər. Ermənistanın adətidir, başqalarına yarınmaq...

Qarabağda sülhməramlılar var, düzdür hələ də özlərini sülh məramlı olduqlarını sübut edə bilməyiblər. Soruşa bilərsiniz, niyə və bunun günahı kimdədir? Çünki sülhməramlı deyillər, istəkləri sülh yaratmaq deyil. Sülhməramlı olmaq üçün təkcə kurs keçmək də yetərli deyil, halbuki bunların heç o məsələdən də xəbərləri yoxdur. Rusiyanın hansısa hərbi hissəsindən yığıb-töküblər Qarabağa. Qanunları bilirlər desəm yanılaram və böyük günaha batmış olaram. Onların fəaliyyət göstərdiyi yerdə heç bir qanun işləmir. Jurnalistin qabağına PK pulemyotu ilə çıxan sülhməramlıdan nə gözləyəsən? Bilmirlər, yaxud bilmək istəmirlər ki, hansı ölkənin ərazisindədirlər. Separatçılarla bir yerdə olmaları onları ifşa edən ən böyük faktdır. Sovet ordusundakı "al gülüm, ver gülüm" siyasətinin hələ də keçərli olduğu bir ordudan, hansı adla xidmət aparır-aparsın, yaxşı heç nə gözləmək olmaz. Üçtərəfli bəyanatın şərtlərinə istinad edərək bölgəyə yerləşdirilən sülhməramlıların bəyanatdan xəbərləri yoxdur. Əgər xəbərləri olsaydı, heç olmasa həmin bəyanatın bir maddəsinə əməl edərdilər.

Bəyanatın 4-cü bəndində yazılıb: "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır". Burada başa düşülməyən nə var? Bu maddə həm də Rusiya tərəfində rus dilində yazılmış variantda var. Amma sülhməramlılar Qarabağda burunlarının dibində olan, hətta onlardan hərbi yardım alan erməni silahlı birləşmələrini görməzdən gəlirlər. Elə bilirsiniz sülhməramlılar bu hərəkətləri ilə ermənilərə yardım edirlər? Yox, bunu ancaq qanmaz, burnunun ücundan uzağı görə bilməyən ermənilər belə başa düşərlər. Atalar məsəlidir, deyir "bildirçinin bəyliyi, darı sovulana qədərdir". Ermənilər üçün əkilmiş darının yetişmə müddəti də 2025-ci ilin noyabr ayına təsadüf edir, yəni iki il yarım "ömrü" qalıb sülhməramlıların. Bəs sonra, nə baş verəcək, heç ağıllarına gətirirlərmi?

Erməni saytlarının birində erməni politoloq maraqlı bir xəbər paylaşıb. Bəlkə də özü bilmədən Ermənistan rəhbərlərinin yalanını üzə çıxarıb. Paşinyan Azərbaycanın üçtərəfli bəyanatın 4-cü maddəsinə istinad edərək Qarabağdakı Ermənistan ordusunun hələ də çıxarılmadığını deyəndə və bunu tələb edəndə erməni baş nazir bildirmişdi ki, Azərbaycan ərazisi olan Qarabağda bir nəfər də olsun erməni əsgər yoxdur. Oradakılar isə Qarabağdakı ermənilərin özünümüdafiə qüvvələrinin və bunların İrəvanla heç bir əlaqəsi yoxdur. İndi isə gələk erməni saytının yazdıqlarına: "Artıq üç gündür ki, ermənilər azərbaycanlıların Laçın dəhlizində yolu bağlamasını müzakirə edirlər. Üç gündür ki, Ermənistanın siyasi meydanı bu münasibətlə qaynayır. Əvvəlkilər arasından olan müxalifət günahı indiki hakimiyyətin üzərinə atır. Amma Köçəryanların və Serjiklərin də bu məsələdə günahları böyükdür. Paşinyan hökumətindən onun hərəkətsizliyi barədə soruşmaq istərdim. Niyə İrəvan "Artsax" ermənilərini qorumaq üçün qəti addım atmadı? Niyə "Artsax Müdafiə Ordusu" heç bir şəkildə reaksiya vermədi, yeri gəlmişkən, onların Ermənistan büdcəsindən maliyyələşdirilməsi heç kimə sirr deyil. Niyə özümüzü müdafiə edə bilməyəcək qədər amorf və iradəsizik?". Əslində bizim demək istədiyimiz də bu idi, başdan başa qanunsuzluqlar. Belə olan halda sülhməramlıların sülh məramlı olmasını, ermənilərin isə Azərbaycana inteqrasiya edəcəyini gözləməyə dəyərmi? İki il gözləmişik, bu qədər də gözləyək, görək nə olacaq?



# Tibbi tibbi yardım: həkim xəstəyə niyə çata bilmir?



Elçin Bayramlı

***Son vaxtlar Bakıda təcili yardımla bağlı narazılıqlar artıb. Təcili yardım maşınları çox gec gəlir, yaxşı xidmət göstərmir. Vaxtından gec gəldiyi üçün ölüm hallarına da rast gəlinir. Bunun obyektiv və subyektiv səbəbləri var. Şəhərdə fasiləsiz tıxacların olması, bir çox yeni yaşayış sahələrində küçələrin adı, binaların nömrəsi yoxdur. Özbaşına tikililər var. Təcili yardım gələndə bilmir hansı binaya daxil olsun. Bunlar obyektiv səbəblərdir.***

Subyektiv səbəblər təcili yardım maşınlarının, briqadaların sayının az olmasıdır. 4-5 milyon əhalisi olan paytaxt üçün cəmi 139 tibbi yardım maşını var ki, bu da çox azdır. Bu say 2-3 dəfə artırılmalıdır. Bundan başqa, təcili yardım həkim briqadalarının sayı və onların dərman təchizatı artırılmalıdır. Xəstə bir çox hallarda kritik vəziyyətdən çıxarıla bilmir. Çünki bir çox dərmanlar təcili yarım həkimlərində olmur.

Daha bir problem isə ondan ibarətdir ki, təcili yardım maşınları ərazilərə görə bölünməlidir, stansiyada dayanmalı deyil. Əvvəllər belə edirdilər, lakin son vaxtlar bu qayda götürülb. Yaxşı olardı ki, yenidən bərpa olunsun. Uzaq məsafəyə tıxac olduğu üçün çağırışa gedib çatmaq çətin olur. Bu da bəzi hallarda faciə ilə nəticələnir. Yaxın ərazidə maşının olması isə, bu sahədə ən yaxşı çıxış yoludur.

Hər il dövlət büdcəsindən səhiyyə üçün ayrılan büdcə artırılır. Hər birimiz maaşımızdan icbari tibbi sığorta üçün pul ödəyirik. Bu o deməkdir ki, bizim tibbi yardım almaq hüququmuz var. Və bu, təmin olunmalıdır. Həkimlərin əməyini isə qiymətləndirmək lazımdır. Sayları az, işləri çoxdur. Fiziki və zehni olaraq yorulurlar. Bu da iş keyfiyyətini aşağı salır. Əmək haqqları da gördükləri işə görə azdır. Buna görə də çağırışa gedərkən bəziləri xəstədən pul götürürlər.

Ümumiyyətlə, bu kimi hallar vətəndaşların normal tibbi xidmət alması səviyyəsini aşağı salır. Bu səbəbdən bu sahədə mövcud problemlər həll edilməlidir. Bunun üçün həm maliyyə imkanları var, həm də kadr ehtiyatı kifayət qədərdir.

Qeyd etmək lazımdır ki, bir çox ölkələtə nisbətdə, bizdə təcili tibbi yardım xidməti daha yaxşı işləyir, lakin maddi-texniki bazanın, xüsusən də maşınların azlığı bu sahədə problemlər yaradır. Həm də təkcə paytaxtda yox, regionlarda da. Rayonlarda ərazi böyükdür, bir neçə təcili yardım maşını isə çağırışları çatdıra bilmir.

Bu məsələ hökumət səviyyəsində həll olunmalıdır. Səhiyyə ayrılan büdcədən yeni maşınların alınması üçün vəsait ayrılmalıdır. Ən əsası maşınların stansiyalarda yox, ərazilərdə növbədə dayanması təmin edilməlidir. Bu halda təcili tibbi yardım xidmətinin səviyyəsi və effektivliyi dəfələrlə artmış olar və bütün narazılıqlar aradan qalxar.





# Bakının mərkəzində "Qış Nağılı"





REPORTAJ

Bakının mərkəzində Fəvvarələr meydanında, Nərgiz xeyriyyə Fondunun təşəbbüsü ilə "Soyuq Əllər İsti Ürək" xeyriyyə yarmarkası təşkil olunub. SİA xəbər verir ki, yarmarka paytaxt sakinlərinə, şəhərimizin qonaqlarına əsl bayram ab-havası bəxş edir. Bu nağıllar aləmindən xoş əhval-ruhiyyə almamaq xoş əhvala köklənməmək mümkün deyil. Çünki burada əsl bayram abu-havası hökm sürür. Yeni il musiqiləri, al-əlvan işıqlar, oyuncaqlar, şaxta baba və qarqız yarmarkaya xüsusi gözəllik qatır. Xüsusi ilə hər damaq zövqünə uyğun müxtəlif təamlar bir-birindən əyləncəli oyunlar hamısı bir məkanda "Soyuq Əllər İsti ürək" yarmarkasında toplaşıb. Bu ilki yarmarkada 64 böyük və 20 balaca evlər, 3 ədəd 2 mərtəbəli restoran, müxtəlif köşklər və tematik zonalardan ibarət köşklər mövcuddur. Burada müxtəlif suvenirlərin və qida məhsullarının satışı həyata keçirilir. Həmçinin yemək rəflərində Qərbin və Şərqin ləzzətli təamlarını kəşf edə bilərsiz.

Qiymətlərə gəldikdə isə soyuq havada isti qəhvə, isti şokolad, salebə tələbat daha çox olduğu üçün qiymətlərə maksimum endirim edilir və qiymətlər 4 AZN-dən başlayır. Türk mətbəxinə məxsus yeməklərdən plov üstü toyuq 4 AZN, "Balıq Ekmek" adı ilə tanınan balıq çörək 4 AZN, közdə şabalıd 20 dənəsi 5 AZN, Kumpir 3.50 qəpik, əjdaha nəfəsi 2 AZN, İsti çaxır 80 qəpik, əl işlərindən ibarət təbii daşlardan istifadə edilmiş müxtəlif zinət əşyaları 5-10 AZN təşkil edir. Suvenirlər isə 10 AZN-dən başlayır. Yarmarkanın ən əyləncəli qismi isə oyunlardır. Burada həm əyləncəli oyunlar oynaya, həm də bir birindən gözəl hədiyyələr qazana bilərsiniz. Oyunların qiymətlərinə gəldikdə isə Tir 3 atışı 1 AZN, rulet oyunu 1 AZN, lazer oyunu 1 AZN təşkil edir.

Ənənəvi olaraq təşkil olunan yarmarkanın təşkil olunmasında əsas məqsəd isə Nərgiz Fonduna müraciət edən onlarla ailəyə yenidən ümid bəxş etməkdir. Hər il olduğu kimi yarmarka sponsorlarının maliyyə dəstəyi və yarmarkada qurulan evlərin kirayəsindən toplanan bütün vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicəsi və əməliyyat xərclərinin qarşılanmasına sərf edilir. Yarmarkanın açılışı dekabrın 1-də baş tutub və 15 yanvaradək səhər 11:00-dan 23:00-dək yarmarka ziyatçilərinin xidmətindədir.

***Kəmalə Təyyarqızı***

# ABŞ Konqresində erməni-yunan fiaskosu

## ABŞ-da bir reallığı anlayanlar - Azərbaycan və Türkiyənin maraqları əleyhinə qəbul edilən istənilən qərarlar və qətnamələr son anda ABŞ-ın dünyadakı nüfuzuna da ciddi xələllər vura bilər

ABŞ Konqresində 2023-cü il müdafiə büdcəsi layihəsinin yekun variantında Nümayəndələr Palatasının və Senatının silahlı qüvvələr komitəsinin üzvləri olan, eləcə də ermənipərəst və yunanpərəst konqresmenlərin təşəbbüsü ilə irəli sürülən Azərbaycan və Türkiyə əleyhinə yönəlmiş məqalələr yer almayıb. Belə ki, sözügedən məqalələrin qərəzlilik kontekstindən fərqli olaraq, ikipalatalı müvəqqəti komitənin birgə izahatı sənədində Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş son toqquşmalara neytral yanaşma





ifadə edilir, həmçinin hər iki ölkə diplomatik səyləri aktivləşdirməyə çağırılır.

### Azərbaycan və Türkiyə əleyhinə geri qaytarılmış maddələr hansılardır?

Sözügedən sənəddə həmçinin qeyd olunur ki, təcili olaraq Nümayəndələr Palatasının 2022-ci il iyulun 14-də qəbul etdiyi qanun layihəsində göstərilən "Azərbaycanın "Dağlıq Qarabağdakı" (bundan sonra Qarabağ iqtisadi rayonu) fəaliyyəti haqqında 2020-ci ildə hesabat" Pentaqona təqdim edilməlidir. Qeyd edək ki, bu hesabat 2022-ci il iyunun 30-dan gec olmayaraq (2022-ci ilin müdafiə büdcəsi haqqında qanunun imzalanmasından 180 gün sonra) verilməli idi. Nümayəndələr Palatasının 2022-ci il iyulun 14-də qəbul etdiyi qanun layihəsində yer alan Azərbaycan və Türkiyə əleyhinə geri qaytarılmış maddələr isə aşağıdakılardır:

"Konqresin Azərbaycan hökumətinin bütün erməni hərbi əsirləri və əsir götürülmüş mülki şəxsləri dərhal geri qaytarması barədə rəyi" araşdırılacaq;

"Müdafiə nazirinə "Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv edilməsi ilə bağlı tələblərin nəzərdən keçirilməsinin təfərrüatlarını sənədləşdirməyi və Azərbaycan hökumətinə təhlükəsizlik sahəsində yardımın Ermənistan və Azərbaycan arasında münaqişənin sülh yolu ilə həllinə xələl gətirib-gətirməməsi barədə hesabat verməyi" tapşırılacaq;

Qeyd edək ki, prezidentin Türkiyəyə F-16 qırıcılarına, eləcə də onların modernləşdirilməsi üçün texnologiyaların və komplektlərin verilməsinə qoyulan qadağa da araşdırılacaq. Belə ki, ABŞ Türkiyəyə F-16 satışını məhdudlaşdıran hərbi büdcə maddələri ilə bağlı qanun layihəsindən çıxarmışdı.

Məsələ həm də ondadır ki, Qafqaz regionunda və dünyada istər Azərbaycanın, istərsə də Türkiyənin rolları daha çox artmağa başlayıb və yaranan təhlükələrin də qarşısını almağa məhz bu iki ölkə səy göstərmək gücündədir

Onu da xatırladaq ki, müvəqqəti ikipalatalı komitə tərəfindən müzakirə edilən 2023-cü il müdafiə büdcəsi qanun layihəsinin yekun variantı Konqresin hər iki palatasındakı oxşar qanun layihələri üzərində qurulur və qısa müddət ərzində həm Nümayəndələr Palatasında, həm də Senatda ümumi yığıncaqda təsdiq üçün təqdim olunacaq.

Beləliklə, ABŞ-ın qanunverici orqanlarında yer alan erməni və yunan lobbilərinə bağlı konqresmenləri və senatorları gözləmədikləri halda ciddi fiasko ilə qarşılaşıblar. Söz yox ki, bu kimi faktın arxasında dayanan daha bir amil ABŞ-da sağlam düşüncəli insanların doğru nəticə çıxarmaları da dayanır. Məsələ həm də ondadır ki, Qafqaz regionunda və dünyada istər Azərbaycanın, istərsə də Türkiyənin rolları daha çox artmağa başlayıb və yaranan təhlükələrin də qarşısını almağa məhz bu iki ölkə səy göstərmək gücündədir. Təbii ki, ABŞ-da da bu reallığı anlayanlar var və bütün hallarda Azərbaycan və Türkiyənin maraqları əleyhinə qəbul edilən istənilən qərarlar və qətnamələr son anda ABŞ-ın dünyadakı nüfuzuna da ciddi xələllər vura bilər. Görünür, ABŞ Konqresində 2023-cü il müdafiə büdcəsi layihəsinin yekun variantında Azərbaycan və Türkiyə əleyhinə yönəlmiş məqalələrin yer almaması da həmin gerçəkliyi əks etdirməkdədir.

Xatırladaq ki, 2022-ci ilin 14 dekabr tarixində Bakı vaxtı ilə saat 19:00-da ABŞ Konqresinin Nümayəndələr Palatası komitəsində Qafqazda Amerika siyasəti üzrə dinləmələr keçiriləcək.

ANALİTİK

**Rövşən RƏSULOV**



# Canlı şaxsey-vaxsey

Mətanət MƏMMƏDOVA

**Deyirdilər, insanın özünü biabır etməsi üçün an lazımdır, inanmırdıq. Deyirdik, sözdür də, deyirlər. İki gün əvvəl Tik-tok sosial şəbəkəsində anası ölən bir qızın şaxseyini selfi edib canlı paylaşmasını görərkən anladım ki, hə, adamın özünü biabır-rüsvay etməsi üçün andan da az vaxt lazımmış. Vallah, xəcalətimdən yer ayrıldı, girdim içinə. Sonra da özümə sual da verdim ki, sən niyə xəcalət çəkirsən, bunu ki, paylaşan ayrı adamdır. Amma nə bilim...**

Çox yəqin, yəqindən də yəqin ki, bu videonu izləyənlər içərisində mənim kimi xəcalət çəkən yüzlərlə adam olub. Məni anlayanlar çox olar ki, bu, mentalitetdən irəli gəlir. Bizdə başqasının yerinə utanmaq hissi var. İlahi-pərvərdigara, anasını itirən bir insan acısı üzərinə necə telefonu əlinə ala bilər, dedim. Necə şaxsey-vaxseyini çəkib paylaşa bilər? Dəlidir bu, nədir? Yox, dəli deyil, onu dəli edən zamandı, zəmanədi.

İnanın Allaha, çox insanın artıq başı xarab olmaq üzrədir. Bunun bir neçə səbəbi var. Baş niyə xarab olur, insan necə olur ki, oynamaq üçün utanmır. Hansı ki, bizə öyrətmişlər ki, utanmasan oynamağa nə var ki?..

Hə, artıq utanma hissi azalmaqdadır. Ən dəhşətlisi də elə budur. Utanma hissi ki, azaldı və yox oldu, onda bizim bəyənmədiyimiz heyvanlardan nəyimiz fərqlənir ki? Bir də axi bu heyvanlarla nə işimiz var? İndi onlar bəzi insanların yanında mədəniyyət, ədəb nümunələridir.

Başımızı xarab edən ən birinci yediklərimizdir, sözsüz. Vallah bəzi mənşəyi bilinməyən qidalar bizi bu günə qoyacaqdı da, bunu çoxdan fikirləşməliydik. Həm də çox şey fikirləşməliydik.

Başımızı xarab edən və utanma hissimizi ərşə qaldıran amillərdən biri də eyni zamanda qapılarımızla birlikdə pəncərələrimizi də yeni texnologiyalara açmağımız oldu. Bu texnologiyalarla bizim başımıza nə yeritdilərsə, oduq belə. Bir gün, iki gün, bir də gördük ki, İlahi, utanmaq hissi ərşə çəkilir.

Açıb ailəmizin sirrini sosial şəbəkələrdə paylaşdıq, guya ki, dərdləşirik ətrafımızla. Evdə nə bişirdiksə, nə yediksə, qoyduq bu sosial şəbəkələrə, dedik, baxın. Hamı da baxdı, yediklərimizi həftələrlə, aylarla tapıb yeyə bilməyənlər bizi qınadıqca, biz qızışdıq.

Sonra başladıq uşaqlarımızı sosial aktiv etməyə. Dünyaya gəlməsindən başladıq aybaay reklama. Ay bu gün bir ayı, sabah beş ayı, ay bu gün diş çıxardı, sabah bu diş oldu 3, birisi gün 5 oldu və sair və ilaxır... Ad günü, süfrələr, qonaqlar, hədiyyələr, videolar, şəkillər, əttökən-əttökən nələr, nələr...

Əşi ta ağını çıxardıq ey... Toy qaldı, düyün qaldı, ev-eşik qaldı, həyət-baca qaldı, hər şeyi paylaşdıq.

Çıxdıq millətin gözü qarşısında makyaj etdik, paltar geyindik, soyunduq...

Çıxdıq millətin qarşısında rəqs etdik, həm də harada, küçənin ortasında. Oğlanlı-qızlı, qocalı-cavanlı...

Nəvə-nəticələrimiz yaşlı nənə-babalarını çəkib sosial şəbəkələrdə məsxərə mözusu etdilər. Baxdıq, güldük, uğunduq. Gənc qızlar, oğlanlar özlərini min formada çəkib paylaşdılar, yenə gülümsədik, xoşumuza gəldi.Bütün bunları etdikcə utanma hisslərimizi bir-bir dəfn etdik, torpağa tapşırdıq.

Dünənədək bir manat pul, bir kəllə qənd, bir molla ilə baş tutan evliliklər gün o gün oldu ki, bir yox, iki yox, üç yox, dörd-beş ağır mərasimlərlə reallaşa bildi. Hər biri də bütün detayları ilə sosial şəbəkələrdə. Nə utandıq, nə də ki usandıq. Paylaşdıqca qızışdıq, qızışdıqca, utanma hissini itirdirk.

Zaman gəldi yetişdi, anamız rəhmətə getdi. Bunun da ilkini etdik. Ağrı-acımızı həmin o qız kimi çəkib paylaşdıq. Düşünürəm ki, Allah eləməmiş, görəsən bu qız bunu dəbə salmadı ki? Görəsən ta bundan sonra hamı ölüsünün şaxsey-vaxseyini paylaşacaq?

Hə, ölmədik, qaldıq, bu günləri də gördük. Hər şey bir yana, ölülərimizi paylaşmağımızı ağlımıza belə gətirməzdik. Yox, səhv etdim. Ölülərimizi çoxdan paylaşırıq. Ay bu nədir, doğum, ölüm ildönümüdü, ay bu nədir, atam yadıma düşdü, ay bu nədir, anamı yuxuda gördüm və sair, ilaxır, paylaşırıq. Ta yatardıq, yuxumuza girməzdi ki, əzizimizin şaxsey-vaxseyini də sosial şəbəkələrdə paylaşarıq. Nə deyim, ta burada sözüm bitir. Allah alıb onsuz da, yerdə qalan az-maz ağlımızı almasın barı...

# Erməni - fars qardaşlığı bəşəriyyət üçün təhlükə mənbəyidir

*BMT-nin insanlığın terrordan xilas edilməsi üçün təcili tədbirlər görməsi vacibdir*







Reallıq ondan ibarətdir ki, erməni terrorçu toplum Azərbaycan ərazilərinə köçürüləndən azərbaycanlılar müxtəlif formalarda əziyyətlər çəkmişlər. Yeni ermənilər farslardan, ruslardan və digər məkrli və qəddar qüvvələrdən hərbi-siyasi dəstək almaqla azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirmişlər. Erməni terrorçuları xaricdən aldıqları dəstək hesabına qeyri-insani siyasəti yeridərək azərbaycanlıları indi Ermənistan adlandırılan tarixi torpaqlarından didərgin salmış, qırğınlar həyata keçirmiş, yurd-yuvalarından didərgin salmışlar. Ermənilərin bölgədə süni şəkildə artırmaq üçün zaman-zaman iş aparılmışdır. Nəticədə, əhali sayını qisməndə olsa artırmağa nail olmuşlar. 1905-1907- ci illərdə ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demokratik vəziyyətin tamamilə dəyişməsinə səbəb olmuşdur.

Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və digər tarixi Azərbaycan torpaqlarında on minlərlə azərbaycanlı erməni terrorçu qüvvələri tərəfində qətlə yetirilmişlər. Erməni daşnaq quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Erməni quldur dəstələri yalnız Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl iğtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedivi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C. Libardyanın yazdığına görə üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 "siyasi qətl" törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı, 2-3-ü təsadüfən heç bir səbəb olmadan, qalanları isə bankirlərə və sələmçilərə qarşı olmuşdur. Alimlər Libardiyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: "... Bu qısa üç illik dövrdə erməni terrorçuları tərəfindən öldürülmüş, erməni mənşəli hər iki adamla yanaşı bir qeyri-erməni mənşəli şəxsdə öldürülmüşdür. Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorçuların fəaliyyətini təsviq etmək məcburiyyətində qoymaq".1905-ci ilin fevralın 6-da Bakıda Mixaylov xəstəxanasının sənədlərinə görə erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində terror qrupu 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i isə başqa millətin nümayəndələridir.

## Fars molla rejimi hər zaman erməni qardaşlarına yardımçı olublar

Tarixi reallıqlardan çıxış edərək qeyd etmək olar ki, erməni terrorçuları qətllər və soyqırım aktarı törədərkən daha çox bədnam fars qüvvələrindən dəstək alıblar. O zamandan ermənilərə göstərilən hərbi-siyasi dəstək bu gün də davam etməkdədir. 30 il erməni işğalı altında olmuş torpaqlarımızın yeraltı yerüstü sərvətlərinin talan edilməsində fars-molla rejimi xüsusi fəallıq göstərib. Sözdə isə Azərbaycanla dost ölkə olduğunu və dövlətimizin ərazi bütövlüyünü tanıdığını, Azərbaycan xalqının milli varlığına hörmətlə yanaşdığını bildirib. Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz işğal altında olan torpaqlarımızı azad etdiyi zaman fars-molla rejiminin əsl bədnam siması məlum oldu. Dərhal Azərbaycanla sərhəddə şou xarakterli hərbi təlimlər keçirdi, Ermənistanın Qafan şəhərində Baş Konsulluq açmaqla "Ermənistanın təhlükəsizliyini təmin etmək üçün buradayıq" kimi mənasız fikirləri dövriyyəyə buraxdı, Baş nazir N.Paşinyanı Tehrana rəsmi səfərə dəvət edib, müəyyən separatçı sövdələşmə apardı, müqavilələr imzaladı. Bununla tərəflər baş molla Xomneinin dediyi kimi, erməni-fars xalqları arasındakı min illik qardaşlığın dərin köklər malik olduğu nümayiş etdirildi. Əmmaməli mollalar da bekar dayanmayıb Azərbaycan haqqında hədyanlar danışır, qəpik-quruşa kölelik edən TV əməkdaşlarını, mətbu orqan nümayəndələrini dövriyyə buraxıb, sərsəm fikirlər ifadə edirlər. Bəzən isə o qədər ağ yalanlar uydurulub, tirajlayırlar ki, bir növ "bişmiş toyuğun belə gülməyi gəlir". Amma unudurlar ki, fars-molla rejiminin meydan suladıqları ərazilər tarixi Azərbaycan torpaqlarıdır. Min illərdir ki, o ərazilərdə Azərbaycan oğulları hökmranlıq ediblər. Azərbaycan dili vahid və əsas dil olaraq hakimiyyətlərin başlıca dövlət dili olub. Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacarlar zamanında Azərbaycan türkcəsi elm, ədəbiyyat dili olmaqla bərabər, rəsmi dövlət səviyyəsinə yüksəlmiş, dövlətlərarası diplomatik yazışmalarda geniş istifadə olunmuşdur. Hətta XVI əsrin əvvəllərində əsası qoyulan vahid, mərkəzləşdirilmiş Azərbaycan Səfəvilər dövlətində (1501-1736) türk dili dövlət dili səviyyəsinə yüksəlmiş, dövlətlərarası diplomatik yazışmalarda geniş istifadə olunmuşdur. Səfəvi hökmdarı I Şah İsmayıl öz müasirləri kimi məşhur şeir və qəzəllərindən ibarət olan divanını məhz türk dilində yazmışdır. Nadir şah Əfşarın hakimiyyəti (1736-1747) dövründə də, İranda xalq arasında, sarayda və orduda Nadir şahın rəsmi yazışmalarında türk dilindən geniş istifadə edilmişdir. 1747-ci ildə Nadir şahın öldürülməsindən sonra da Azərbaycan torpaqlarında formalaşan müstəqil xanlıqlarda Azərbaycan türk dili aparıcı yer tutmuşdur. Qacarlar sülaləsinin hakimiyyəti (1791-1925) dövründə də Azərbaycan türk əsilli hökmdarlar əsas dil Azərbaycan türkcəsi olmuşdur. Bunu fars molla rejiminin elm, mədəniyyət nümayəndələri, araşdırmaçı jurnalistləri, tarixçiləri bilməmiş deyillər. İndi bunu etiraf edib, dilə gətirmirlərsə, bu, onların kar və kor olmalarından irəli gəlir. O ki qaldı molla rejiminin hay-küylü hərbi təlimlərinin keçirilməsinə, bu kimi hallar onların özlərinə problem gətirə bilər. Çünki güclü və qüdrətli Azərbaycan ordusu istənilən məqamda molla rejiminin sütunlarını məhv edə bilər. Digər tərəfdən, bu günlər Türkiyə və Azərbaycanın hərbi birləşmələrinin "Qardaş yumruğu" birgə təlimlərinin keçirilməsi ermənilərə və onların havadarlarına sərt yumruqdur, başlarına dəysə darmadağın olarlar.

## "Qardaş yumruğu" ermənilərə və onların havadarlarına sərt yumruqdur, başlarına dəysə darmadağın olarlar

Azərbaycan və Türkiyə ordularının iştirakı ilə keçirilən "Qardaş yumruğu" birgə təlimində tanklar, artilleriya batareyaları, təyyarələr, helikopterlər və pilotsuz uçuş aparatlarından (PUA) istifadə edilib. Hərbi təlimləri Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri, ordu generalı Hulusi Akar, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler, Quru Qoşunları komandanı ordu generalı Musa Avsever, Hərbi Hava Qüvvələri komandanı ordu generalı Atilla Gülan, Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Ercüment Tatlıoğlu və Azərbaycanın yüksək rütbəli zabitləri izləyib. Dekabrın 6-da soyuq və qarlı havada həyata keçirilən təlim çərçivəsində ilk olaraq artilleriya batareyaları ilə müəyyən edilmiş hədəflərə atəş açılıb. Hədəflər dəqiqliklə vurulduqdan sonra tank atışlarına başlanılıb. Sonra T-72 və T-90 tankları müəyyən edilən hədəfləri məhv etdikdən sonra ikinci dəfə artilleriya batareyaları atəş açıb. Artilleriya atəşindən sonra isə zirehli bölmələrin hücumları başlayıb.Təlimin növbəti hissəsində yaralılar helikopterlə təxliyyə olunub, eyni zamanda, panton körpülərlə çaydan keçmə əməliyyatı icra edilib, artilleriya batareyalarının köçürülməsi həyata keçirilib. Bütün bu proses Hərbi Hava Qüvvələri elementlərinin hava dəstəyi ilə reallaşdırılıb."Qardaş yumruğu" təlimi planda nəzərdə tutulan hədəflərin tutulması ilə uğurla başa çatıb. Qeyd edək ki, Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilən təlim Bakı şəhərini, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini əhatə edir. Birgə təlimdə əsas diqqət qoşunların qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəldilib. Hərbi təlimlərin keçirilməsi dostları sevindirsə də düşmənin bağrını yarıb. Politoloq Rəşad Bayramov hərbi təlimlərin keçirilməsindən daha çox molla rejimi və Ermənistanın narahat olduğunu bildirib: "İran - Ermənistan münasibətlərinin təməlində Azərbaycan və türk düşmənçiliyi dayanır. Məhz elə bu səbəbdəndir ki, Ermənistan öz müstəqilliyini elan etdikdə onu tanıyan ilk ölkələrdən biri İran olub. Erməni xristian icması İranın ən böyük xristian icmasıdır və İranda 40 erməni kilsəsi fəaliyyət göstərir. İran rəsmi olaraq ermənilərə öz dilində təhsil almaq, KİV qurmaq hüququ verib və hal-hazırda İranda çoxlu sayda erməni məktəbləri və erməni dilində nəşr olunan qəzet-jurnallar var". Politoloqun sözlərinə görə, molla rejimi Ermənistan ilə əlaqələrinə xüsusi bir əhəmiyyət verməkdədir, çünki bu, Azərbaycan və Türkiyə əməkdaşlığın önünə keçə bilmək üçün əhəmiyyətli bir alternativdir: "İranın Ermənistan arasında münasibətlərin inkişafını şərtləndirən digər mühüm səbəb də dünyada mövcud olan diaspor əlaqələridir. Əslində, İran-Ermənistan münasibətlərini İran Ayatullası Əhtari Aram Simonyanla görüşdə bir cümlə ilə tam olaraq ifadə etdi. O bildirdi ki, "Ermənistanla İran bir millət, iki dövlətdir". Bax, budur müsəlman Azərbaycana düşmən kəsilən, məscidlərimizi dağıdan, uşaq, qadın, yaşlı demədən azərbaycanlıları qətl edən, uzun illər ərzində torpaqlarımızı işğal altında saxlayan Ermənistana İranın münasibəti. Molla rejiminin erməni terror təşkilatı olan ASALA ilə əlaqələrinə gəldikdə isə, bu danılmaz faktdır və bunu qruplaşmanın keçmiş üzvü Martiros Jamkoçyan da bu yaxınlarda verdyi açıqlama ilə təsdiqləyib. Jamçokyan ASALA-nın rəhbərlərindən biri olan beynəlxalq terrorçu Monte Melkonyanın Azərbaycan torpaqlarının işğalı zaman İranın xüsusi xidmət orqanlarının əməkdaşları ilə görüşdüyünü və həmin şəxslərin Zəngilan, Qubadlı və Horadizə hücum planından tam xəbərdar olmalarını, hətta həmin planları hazırlayanları kifayət qədər yaxşı tanıdıqlarını da deyib. Başqa sözlə desək, İran xüsusi xidmət orqanları terrorçularla görüşməklə yanaşı, həm də Azərbaycan ərazilərinin işğalına da seyrçi yanaşıblar. Eləcə də Şuşanın işğalı ərəfəsində guya ki, vasitəçilik missiyası ilə çıxış edən İranın Şuşanın işğalında oynadığı rol da unudulmamalıdır. Tehranda Azərbaycan və Ermənistan rəhbərləri arasında atəşkəs sazişinin imzalanmasından altı saat sonra Şuşanın işğal edilməsi və rəsmi Tehranın da bu məsələyə seyrçi mövqeyi, əslində, İranın iç üzünü görmək üçün kifayət edir. Halbuki İran ən azından öz vasitəçiliyi imzalanmış atəşkəs sazişinin pozulmasına görə Ermənistana təzyiq edər və onlardan hesabat tələb edərdi. Ancaq bunlar baş vermədi. Birinci Qarabağ savaşında iranlı generalların ermənilərə hərbi təlim keçməsi də bir faktdır və ermənilər bu faktı gizlətmirlər. Eləcə də birinci Qarabağ savaşında erməni ordusunun qida və geyimlə təchiz olunmasında, blokadada olan Ermənistanın ayaqda qalması üçün hər cür dəstək verilməsində, olduqca cüzi qiymətlərlə benzin və qaz təchizatını həyata keçirməsində də İranın olduqca böyük rolu olub. Bu gün də İran eyni mövqe sərgiləyərək Ermənistanı yanacaq məhsulları ilə təmin edir. İrandan Ermənistana verilən və elektrik enerjisi ilə əvəz edilən qazın qiymətinə baxsaq görərik ki, bu rəqəm təqribən 173 dollar civarındadır və bu da o deməkdir ki, İran Ermənistana dünyada mövcud olan ən ucuz qiymətə qaz verir. Misal üçün deyim ki, İrandan Türkiyəyə verilən qazın qiyməti 500-550 dollar aralığında dəyişir".

Bir sözlə, fars-molla rejimi və Ermənistan başlarını qaldırmağa cəhd etsələr, layiq olduqları cəzanı alacaqlar. Hələlik isə onu vurğulamaq yerinə düşərdi ki, dünya üçün təhlükə mənbəyi olan bu iki dövlət yer üzündən silinməsə, bəşəriyyət dinclik tapmayacaq. Ona görə də, dünya dövlətləri və xalqları sakit yaşam qurmaq istəyirsə, təcili tədbirlər görməlidir. Yəni BMT-nin insanlığın terrordan xilas edilməsi üçün təcili tədbirlər görməsi vacibdir.

**İ.ƏLİYEV**

# Qriqori Karasin: "Bu nəqliyyat dəhlizi Rusiya üçün həyati əhəmiyyət kəsb edir"

**Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını real hesab edir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" çərçivəsində hazırlanıb.

Rusiya Federasiyası Federasiya Şurasının beynəlxalq məsələlər üzrə komitəsinin sədri, Rusiya Xarici İşlər Nazirliyi rəhbərinin keçmiş müavini Qriqori Karasin "Moskva-Baku" portalına müsahibəsində Cənubi Qafqazın dəyişən dünyada Rusiya üçün əhəmiyyətindən bəhs edib. Komitə sədri həmçinin, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması perspektivlərindən də danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.



*- Cənab Karasin, dünya nizamının transformasiyası, dəyişən dünya kontekstində Cənubi Qafqazın və Azərbaycanla Ermənistan arasında münasibətlərin yekun şəkildə normallaşmasının Rusiya üçün hansı əhəmiyyəti var?*

- Cənubi Qafqaz dövlətləri beynəlxalq vəziyyətdən asılı olmayaraq Rusiya üçün həmişə son dərəcə vacib olub və vacibdir, çünki biz vahid, bütöv məkanda olduğumuza görə subkontinentik və bütün məsələləri dialoq əsasında sülh yolu ilə, ümumi kompromislərlə həll etməliyik. Bu, "Xəzər beşliyi"nin qarşılıqlı fəaliyyətindən tutmuş Ermənistanla Azərbaycan arasındakı münasibətlərə qədər istisnasız olaraq bütün məsələlərə aiddir. Müxtəlif mərhələlərdə (Cənubi Qafqazdakı vəziyyətdə, Ermənistan-Azərbaycan münaqişəsində - red.), kəskin məqamlar olub, bunlar keçmişdə qalıb. İndi isə bizim səylərimiz həmişə birgə, ümumi regional maraqlara uyğun olmalıdır. Hesab edirəm ki, bu, çox əldə edilə bilən bir məqsəddir. Bunun üçün bizim regional təşkilatlarımız, ən əsası isə ikitərəfli əlaqələrimiz var- dövlətlərin rəhbərləri- Rusiya Federasiyası və Azərbaycan prezidentləri, Ermənistanın baş naziri arasında etimad. Mənə elə gəlir ki, tədricən Gürcüstan da öz qonşuları ilə konstruktiv münasibətlərin ümumi konturuna daxil olur. Bu proses ağrılıdır, asan deyil, amma buna baxmayaraq, iş gedir. İşləmək lazımdır, ondan sonra nikbinlik gələcək.






*- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması nə dərəcədə realdır?*

- Əgər bu, real olmasaydı, bizim ölkələrin- Azərbaycanın, Rusiyanın, Ermənistanın diplomatları buna çalışmazdılar. Biz bu istiqamətdə işləyirik. Əgər 11 il əvvəlki vəziyyəti götürsək, o zaman məsələnin tamamilə sakit həlli ehtimalı yaranmışdı- mən 5 rayonla bağlı vəziyyəti nəzərdə tuturam. Amma təəssüf ki, bu həmin vaxt həyata keçirilmədi. Həyat həm daxili, həm də regional məsələlərdə bir qədər fərqli dönüş aldı. Amma biz optimizmlə doluyuq.

*- Rusiya və Azərbaycan liderləri fevral ayında Müttəfiqlərin Əməkdaşlığı haqqında Bəyannamə imzaladılar. Bu, Rusiya ilə Qərb arasında münaqişənin kəskinləşməsindən əvvəl baş verib. Belə çıxır ki, Rusiya hansısa formada gələcəyi qabaqcadan görüb və bilərəkdən qonşuları ilə münasibətləri gücləndirmək vektorunu götürüb.*

- Azərbaycan regional və beynəlxalq məsələlərdə bizim köhnə tərəfdaşımızdır, bu, müttəfiqlik münasibətləridir, etibarlı tərəfdaşlıqdır. Hər şeydə özünü göstərir. Amma hər şey liderlər arasında formalaşmış atmosferdən başlayır. İlham Heydəroviç və Vladimir Vladimiroviç tez-tez telefonla fikir mübadiləsi aparır, görüşür, regional və beynəlxalq məsələləri müzakirə edirlər. Hər iki tərəf bu tonun üstün olacağına ümid edir. Mən buna tam əminəm.




*- Əvvəllər formalaşmış bəzi ənənəvi nəqliyyat və logistika zəncirlərinin itirilməsi şəraitində bu gün Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılması Rusiya üçün strateji vəzifədir. Ermənistan-Azərbaycanın Rusiya və "Şimal-Cənub" üçün normallaşması çərçivəsində Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılmasının gələcəkdə strateji əhəmiyyət kəsb edəcək bir zəncirin halqaları olduğunu söyləmək olarmı? Rusiya Federasiyası üçün nəqliyyat və logistika xəritəsi necədir?*

- Bu, mümkün olan hər şeydən kənardır və belə də olacaq. Şimal-Cənub nəqliyyat dəhlizi hazırda Rusiya üçün strateji zərurətdir. Biz görürük ki, indi Avropa ilə necə münasibətlərimiz var. Ona görə də nəqliyyat dəhlizinin yaradılması həyati əhəmiyyət kəsb edir. Biz də bunun üzərində işləyirik.

*- Rusiya ən yüksək və yüksək səviyyədə dəfələrlə qeyd edib ki, Qərb dövlətləri Rusiyanın nailiyyətlərindən istifadə etməklə Ermənistan-Azərbaycan nizamlanmasına daxil olmağa çalışırlar...*

- Biz baş verənləri sakitcə təhlil etməliyik. Heç kim heç kimə qadağa qoya bilməz. Amma biz hesab edirik ki, Azərbaycan və Ermənistanla birgə səylərimiz daha konstruktivdir, hər bir eqoist ideyalardan uzaqdır və regionda iki dövlət arasında münasibətlərin sakit, normal, gələcəyə yönəldilməsinə yönəlib. Müsahibəyə video formatda buradan baxa bilərsiniz - https://www.youtube.com/watch?v=qnq2hiwLVdg&feature=youtu.be

**Tərcümə - Elçin Bayramlı**

# Elektronlaşma aqrar sahənin inkişafına necə təsir edir?



**Kənd təsərrüfatının rəqəmsallaşdırılması proseslərinin effektivliyi ölkəmizdə aqrar-sənaye sektorunun iqtisadi vəziyyətini müəyyən edən xüsusiyyətləri arasında bir sıra problemləri, aradan qaldırılmışdır.**

Mövcud tendensiyalar kontekstində Azərbaycanın aqrar-sənaye sektoru kənd təsərrüfatının təşkilinin köhnəlmiş modelindən tam innovasiya və rəqəmsallaşmanın inkişafın əsasını təşkil edən modelə doğru irəliləyir. Kənd təsərrüfatında proqnozlaşdırılan rəqəmsal ssenarinin həyata keçirilməsinin təhlili iqtisadi və idarəetmə kateqoriyaları kimi ”rəqəmsal texnologiyalar” və ”kənd təsərrüfatı”nın xüsusiyyətlərini əlaqələndirməyə imkan verir. Təhlil edilən ”Rəqəmsal Kənd Təsərrüfatı” layihəsinin həyata keçirilməsinin gedişatının qiymətləndirilməsi ölkənin aqrar-sənaye kompleksinin rəqəmsal ssenarisinin mütərəqqi inkişafına yol açır. İşin nəticəsi rəqəmsal texnologiyaların Azərbaycan kənd təsərrüfatına tətbiqi problemlərinin müəyyənləşdirilməsidir:



Tədqiqatın aktuallığı onunla əlaqədardır ki, rəqəmsallaşma hazırda milli iqtisadiyyatların mütərəqqi inkişafının əsas determinantı hesab olunur.

## Elektron kənd təsərrüfatı ölkəmizdə necə inkişaf edir?

SİA mövzu ilə bağlı araşdırma edib. Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin istifadəyə verilməsi aqrar sahənin inkişafına bir neçə baxımdan müsbət təsir göstərir. EKTİS daxili və xarici sistemlər ilə inteqrasiya imkanlarını geniş əhatə edən və kənd təsərrüfatı zəncirinin qurulmasına zəmin yaradan vahid bir sistemdir, şəffaflıq və operativlik baxımından fermerlərin işini asanlaşdıran və kənd təsərrüfatı məhsullarının ilkin mərhələsindən son mərhələsinə qədər bütün biznes prosesləri əhatə edən modulların formalaşdırılmasını özündə ehtiva edir. Bu sistemin fəaliyyətə başlaması kənd təsərrüfatı ilə bağlı bütün proseslərin məntiqi əlaqəliliyini qurmağa, analizlər aparmağa, müasir texniki həlləri tətbiq etməyə, dəqiq məlumatlara əsaslanan proqnozlar verməyə imkan verir. 2020-ci ildən aqrar subsidiyalar məhz elektron sistem üzərindən, fermerlərin bəyanları əsasında verilir.

Kənd Təsərrüfatı Nazirliyindən SİA-ya verilən açıqlamada qeyd olunur: ”İstənilən sahədə olduğu kimi, aqrar sahədə də trendlərin müəyyən olunması üçün dataların toplanması və analizi vacibdir. Biz bunu EKTİS-in timsalında aydın görürük. Elektronlaşma ”Big data”ların toplanmasına, təhlilinə, trendləri müəyyənləşdirməyə imkan verir, əldə olunan nəticələr isə aqrar sahədə gedən inkişafı stimullaşdırmağa şərait yaradır. Bu sistem şəffaflığı və hesabatlılığı təmin etmək kimi böyük üstünlüklərə malikdir.

Artıq payızlıq əkinlər başa çatır, fermerlər öz əkinlərini Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan edərək subsidiya üçün müraciət etməyə başlayıblar. Xidmətlərin elektronlaşması nəticəsində bütün ölkə üzrə fermerlər qısa müddətdə öz əkin və torpaq məlumatlarını sistemə daxil edirlər. Subsidiya almağa müraciət etməyə fermerin cəmi bir neçə dəqiqə vaxtı gedir. Fermer eyni zamanda prosesi tam şəkildə izləyir, şəxsi kabineti aktivləşdirməkdən subsidiya almağa qədər olan proseslərin hamısı fermerin nəzarətində olur. Hər hansı çətinlik yaranan zaman fermerin operativ müraciət etmək, sənəd, bəyan prosedurları ilə bağlı texniki dəstək almaq imkanı var. Yəni, elektronlaşma hər şeydən əvvəl fermerə həm də zaman qazandırır, vaxt itkisinin qarşısını alır. Aqrar sahənin elektronlaşması ilə fermerin dövlət dəstəyinə və xidmətlərə çıxışı asanlaşdırılıb. Fermer öz əkin sahələrini özü bəyan edir, subsidiya almaq üçün elektron müraciət formalaşdırır, monitorinqlərdən dərhal sonra subsidiyalar fermerin ”Fermer kartı”na köçürülür. Aqrar sahədə elektronlaşma təkcə Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi ilə yekunlaşmır. Kənd təsərrüfatında xidmətlərin elektronlaşması istiqamətində də mühüm addımlar atılır. Fermerlərin ixtiyarına çoxsaylı mobil tətbiqlər verilib. Fermer bu tətbiqlər vasitəsilə baytarlıq, bitki mühafizəsi, aqrotexniki xidmətlər sifariş edə bilir. Operativlik və əlçatanlıq fermerlərə göstərilən xidmətlərin keyfiyyətinin artmasına da mühüm təsir göstərir ki, burada elektronlaşmanın rolu əvəzsizdir”.

***Havar Şəfiyeva***

# Uşaqları musiqi alətinə yönəltmək onların psixologiyasına necə təsir edir?



”Uşaqların musiqiyə yönləndirilməsi faydalıdır, bu, xüsusən də onların yaradıcılıq bacarıqlarının, təxəyyülünün, təfəkkürünün inkişafına müsbət təsir göstərir”. Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevroreqlyasiya və Tədqiqatlar Dərnəyinin rəsmi təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, klinik psixoloq Narınc Rüstəmova deyib.

Onun sözlərinə görə, musiqi bacarıqlarını uşaqların kiçik yaşlarından formalaşdırmaq lazımdır: ”Uşaqların 5 yaşından musiqi alətlərini tanıması, 7 yaşından etibarən isə öyrənməsi və alətlərdə ifa edə bilməsi tövsiyə edilir. Bəzi valideynlər daha erkən yaşdan övladını musiqiyə yönləndirir, bu zaman uşaqlarda öyrənmə bacarığı formalaşmadığı üçün bəzən musiqi dərslərinə onlarda maraq yaranmır. Beləliklə, musiqi haqqında onlarda mənfi təsəvvürlər yaranmağa başlayır. Belə ki, irəli yaşlarda nə qədər böyüsələr də, artıq musiqi dərslərindən yan keçməyə başlayırlar. Ona görə də, valideynlərə bunu zamanında etməyi tövsiyə edərdim, yəni az öncə qeyd etdiyim kimi, 5-7 yaşlarında övladlarını musiqiyə yönəltməlidirlər. Ümumiyyətlə, bilirik ki, musiqi və riyazi bacarıq genetik faktorlardandır, burada genetika öz sözünü deyir”.

Narınc Rüstəmova sözlərinə belə davam edib: ”Digər tərəfdən uşağın musiqi duyumunun olması da vacib şərtdir. Bəzən valideynlər uşağın musiqi duyumunun zəif olmasını qəbul edə bilmir və övladında zorakı şəkildə musiqi alətinə həvəs, maraq yaratmağa başlayırlar. Xüsusən, kiçik yaşlarda musiqi alətinə marağı olan, lakin kursa gedib öyrənə bilməyən valideynlər sanki öz tamamlanmayan arzularını övladlarının üzərində icra etməyə çalışırlar. Uşaqların məcburi şəkildə musiqiyə yönləndirilməsi özgüvən əskikliyinə və ”mən bacarıqsızam” fikrinin ortaya çıxmasına səbəb olur. Tövsiyə olunur ki, ilk olaraq musiqi dərsində ən azı 3 dərs müəllim və şagird bir-birini tanımalı, həmçinin bu zaman uşaq ifa edəcəyi musiqi alətini də tanımalıdır. Musiqi dərslərinə yazılmamışdan öncə şagirdin musiqi duyumunun yoxlanılmasıda vacib şərtlərdən biridir. Eyni zamanda, valideynlər müəlliminin fikirlərinə diqqət göstərməlidir. Düzdür, bəzən maddiyyat ön plana keçir, müəllim uşağın musiqi duyumu olmadığı halda belə, valideyninə onun musiqi aləti ifa edə biləcəyi vədini verir. Bu da sonda hüsranla nəticələnə bilir.

Bildirmək lazımdır ki, musiqi duyumu olan uşaqlar bunu kiçik yaşlardan bəlli edirlər. Hətta uşaq 1 yaşını tamamlamamış belə musiqi ilə ritm tutmaq, oynamaq, musiqili cizgi filmlərinə baxmaq və mahnıları zümzümə etmək və s. kimi davranışlar sərgiləyərsə, valideynlər anlamalıdırlar ki, övladının musiqi duyumu olduqca yüksəkdir.

Onu da bilmək lazımdır ki, musiqi duyumu yüksək olan uşaqların yaradıcılıq qabiliyyəti də yüksək səviyyədə olur. Əgər bir uşağın musiqi öyrənmək bacarığı zəifdirsə, musiqi dinləmirsə, musiqi alətində ifa edə bilməyəcək fikri yanlışdır. Bunları qarışdırmaq olmaz, belə ki, bunlar fərqli anlayışlar, bacarıqlardır. Hətta insanın ana bətnində ilk 3 ayından görmə, dadbilmə, qoxu funksiyası formalaşmasa belə, onda artıq səs refleksləri yaranır və ətrafdakı səsləri eşidir. Bununla da onda duyabilmə, eşitmə duyğusu formalaşır. Onun görə də uşaqları musiqi ilə böyütmək, musiqi dinləmək, nənə-babalarımızdan qalan lay-lay söyləmək və onlarda musiqi mədəniyyəti formalaşdırmaq, onların gələcək həyatı üçün daha faydalıdır. Hər uşaq musiqi alətində ifa etməyi bacarmaya bilər, ancaq hər uşaq musiqi dinləməyi bacarmalıdır”.

***Ayşən Vəli***

## BAŞSAĞLIĞI

”Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev və qəzetin kollektivi YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayevə anası

**Asudə Bayramqulu qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**